HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər



Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

№ 05 (847) ■ 8 fevral 2017 www.vergiler.az Qiyməti: 55 qəp.

# Azərbaycan Prezidenti İlham Əliyevin Belçika Krallığına səfəri

**Fevralın 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Avropa İttifaqı Şurasının prezidenti Donald Tuskun dəvəti ilə Belçika Krallığına səfər edib. Brüsselin Beynəlxalq Hava Limanında dövlətimizin başçısını Avropa İttifaqının yüksək səviyyəli rəsmi şəxsləri qarşılayıblar.**



Azərbaycan sivilizasiyalar arasında təbii, coğrafi və mədəni körpü rolunu oynamaqla, mədəniyyətlərarası dialoqa böyük sərmayələr yatırır

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva əvvəlcə Belçika Krallığının Vaterlo şəhərində görkəmli Azərbaycan şairəsi Xurşidbanu Natəvanın abidəsini ziyarət ediblər, abidənin önünə gül dəstələri qoyublar. Bildirilib ki, ötən il fevralın 18-də açılışı olan bu abidənin ucaldılması Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın dəstəyi sayəsində mümkün olub. Şəhərin mərkəzi parkında ucaldılmış abidə Azərbaycanın Xalq rəssamı Tahir Salahovun rəhbərliyi ilə heykəltəraş İmran Mehdiyev tərəfindən hazırlanıb. Abidənin özülündə Xurşidbanu Natəvanın Qarabağ şahzadəsi olması barədə məlumat var.

Azərbaycan Prezidenti Brüsseldə Avropa Şurası Parlament Assambleyasının sabiq prezidenti, Niderland-Azərbaycan Dostluq Qrupunun sədri Rene Van der Linden ilə görüşüb. Görüşdən məmnunluğunu ifadə edən Rene Van der Linden vurğulayıb ki, səfər çərçivəsində dövlətimizin başçısının Avropa İttifaqının yüksək səviyyəli rəhbər şəxsləri ilə görüşləri mühüm əhəmiyyət daşıyır.

Prezident İlham Əliyev Avropa İttifaqı ilə Azərbaycan arasında əlaqələrin genişləndirilməsi baxımından bu səfərin önəmini vurğulayıb. Rene Van der Lindeni Azərbaycanın dostu adlandıran dövlətimizin başçısı onun Avropa Şurası Parlament Assambleyasına rəhbərlik etdiyi dövrdə ölkəmizin bu təşkilat ilə səmərəli əməkdaşlığını məmnunluqla xatırladıb, Niderland-Azərbaycan Dostluq Qrupunun sədri kimi onun ölkələrimiz arasında münasibətlərin genişləndirilməsində və Azərbaycana investisiyaların cəlb edilməsində rolunu qeyd edib.

Fevralın 6-da Prezident İlham Əliyev Brüsseldə Avropa İttifaqının xarici məsələlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi, Avropa Komissiyasının vitse-prezidenti xanım Federika Moqerini ilə işçi səhər yeməyi edib. Ötən il Azərbaycana səfərini məmnunluqla xatırlayan Avropa İttifaqının ali nümayəndəsi, Avropa Komissiyasının vitse-prezidenti Federika Moqerini əməkdaşlığımızın daha da möhkəmləndirilməsi, əlaqələrimizin bundan sonra da genişləndirilməsi baxımından Azərbaycan Prezidenti İlham Əliyevin Brüsselə səfərinin əhəmiyyətini qeyd edib, Avropa İttifaqında dövlətimizin başçısının keçirdiyi görüşlərin əməkdaşlığımızın perspektivlərinin müzakirəsi baxımından önəmli olduğunu bildirib. Azərbaycan ilə əməkdaşlığın Avropa İttifaqı üçün böyük önəm daşıdığını vurğulayan Federika Moqerini «Cənub Qaz Dəhlizi» layihəsinin Avropa İttifaqı üçün böyük əhəmiyyətə malik olduğunu vurğulayıb. Söhbət zamanı Azərbaycan-Avropa İttifaqı əlaqələrinin bundan sonra da uğurla inkişaf edəcəyinə əminlik ifadə olunub, qarşılıqlı əməkdaşlığın perspektivləri, energetika, nəqliyyat, təhlükəsizlik, regional və digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Prezident İlham Əliyev Brüsseldə Belçika Kralı Filiplə də görüşüb. Azərbaycan Respublikası ilə Belçika Krallığı arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurlu inkişafından məmnunluq ifadə olunan görüşdə dövlətimizin başçısının bu səfərinin həm Azərbaycan-Belçika ikitərəfli münasibətlərinin genişlənməsi, həm də ölkəmizin Avropa İttifaqı ilə əlaqələrinin möhkəmlənməsi işinə xidmət edəcəyinə əminlik bildirilib. Söhbət zamanı ölkəmizin Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında rolu vurğulanıb, regional, iqtisadi və digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Həmin gün Prezident İlham Əliyev Brüsseldə Avropa Komissiyasının enerji birliyi üzrə vitse-prezidenti Maroş Şevçoviç ilə görüşüb. Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında müxtəlif sahələrdə, o cümlədən enerji, təhlükəsizlik, ətraf mühit, nəqliyyat və digər sahələrdə səmərəli əməkdaşlığın aparıldığı, əlaqələrimizin yüksək səviyyədə olduğu qeyd edilib. Maroş Şevçoviç bildirib ki, Azərbaycan Prezidentinin bu səfəri və Avropa İttifaqı ilə əlaqələr Azərbaycan ilə Avropa İttifaqı arasında yeni sazişin hazırlanması, imzalanması və həyata keçirilməsi işində böyük əhəmiyyət daşıyacaq. Söhbət zamanı Azərbaycanın Avropa İttifaqının strukturları ilə əməkdaşlığından məmnunluq ifadə olunub, «Cənub Qaz Dəhlizi» layihəsi ilə bağlı işlərin həyata keçirildiyi bildirilib. Prezident İlham Əliyev Azərbaycanda enerji infrastrukturunun daha da modernləşdirilməsi, bərpaolunan enerji istehsalı ilə bağlı məlumat verib, bu sahədə Avropa İttifaqı ilə əməkdaşlığın məqsədəuyğunluğunu qeyd edib. Görüşdə bank sahəsində əməkdaşlıqdan söhbət açılıb, Azərbaycanın Avropa Yenidənqurma və İnkişaf Bankı, həmçinin Dünya Bankı ilə yaxşı əməkdaşlıq etdiyi bildirilib, digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fevralın 6-da Brüsseldə Avropa İttifaqı Şurasının prezidenti Donald Tusk ilə görüşü olub. Sonra Azərbaycan Prezidenti və Avropa İttifaqı Şurasının prezidenti Donald Tusk mətbuata birgə bəyanatla çıxış ediblər. Donald Tusk bildirib ki, Azərbaycan Avropa İttifaqı üçün mühüm tərəfdaşdır: «Biz enerji sahəsində etibarlı və strateji tərəfdaşlığımıza əsaslanaraq işbirliyimizi daha da artırmaq istəyirik. Azərbaycan Avropanın enerji təhlükəsizliyi və təchizatının şaxələndirilməsi üçün mühüm əhəmiyyət kəsb edir. Bizim Cənub Qaz Dəhlizini tamamlamaq üçün ortaq öhdəliyimiz var. Bu, faktiki olaraq hər iki tərəf üçün əsas prioritetdir. Avropa İttifaqı artıq Azərbaycanın əsas ticarət tərəfdaşı və onun ən əsas investorlarından biridir. Qarşıdakı illərdə biz ticarət əlaqələrimizi daha da genişləndirmək niyyətindəyik. Biz əməkdaşlığımızın gücləndirilməsinin Azərbaycan iqtisadiyyatının müasirləşdirilməsinə və şaxələndirilməsinə necə kömək edəcəyini müzakirə etdik. Azərbaycan üçün, həmçinin Dünya Ticarət Təşkilatı ilə bağlı danışıqlarda irəliləyişə nail olmaq rəqabətədavamlı biznes mühitinə yol açacaq və bu da iqtisadi inteqrasiyanı irəliyə aparacaq».

Azərbaycanın mədəniyyətlər arasında körpü rolunu oynadığını vurğulayan Avropa İttifaqı Şurasının prezidenti bildirib ki, hazırda qonşuluğumuzda üzləşdiyimiz çağırışları nəzərə alsaq, bu, olduqca təqdirəlayiqdir. Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllini müzakirə etdiklərini deyən. D.Tusk münaqişənin hərbi yolla həllinin mümkünsüzlüyünü və beynəlxalq hüquqa əsasən siyasi qaydada nizamlanmalı olduğunu diqqətə çatdırıb.

Azərbaycan Prezidenti İlham Əliyev bəyanatla çıxış edərək tərəflər arasında əməkdaşlığın çox səmərəli olduğunu qeyd edib: «Bizim aramızda olduqca fəal siyasi dialoq gedir, mütəmadi olaraq görüşürük və ölkəmizdə siyasi inkişafa, siyasi islahatlara aid vacib məsələləri müzakirə edirik. Biz ölkəmizin bütün vətəndaşlarına hər hansı imkanı təmin etmək üçün Azərbaycanda demokratik islahatların davam etdirilməsinə sadiqik».

Enerji sahəsindəki əməkdaşlıqdan danışan Azərbaycan Prezidenti «Cənub Qaz Dəhlizi» layihəsinin inkişaf etdirilməsi, Avropa ölkələri ilə birgə investisiya layihələrinin əhəmiyyətinə toxunub. Bildirib ki, Avropa bizim əsas investorumuzdur: «Azərbaycan dövləti ölkədə olduqca münbit sərmayə mühiti yaradıb. İyirmi beş il əvvəl müstəqilliyimizi bərpa etdikdən sonra iqtisadiyyatımıza 200 milyard dollardan artıq vəsait qoyulub. Eyni zamanda, Avropa bizim əsas ticarət tərəfdaşımızdır. Biz bir çox Avropa ölkələrini neftlə təchiz edirik və ümidvarıq ki, yaxın zamanlarda təbii qazımızı da çatdıracağıq».

Dövlətimizin başçısı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən bəhs edərək qonşu ölkənin işğalçılıq siyasətinə diqqət çəkib: «Ermənistan Azərbaycanın ərazisinin təxminən 20 faizini işğal edib. Bütün humanitar normaları, beynəlxalq hüquq normalarını pozan Ermənistan BMT Təhlükəsizlik Şurasının 1990-cı illərin əvvəlində qəbul olunan və erməni qoşunlarının Azərbaycan ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən 4 qətnaməsini icra etmir. Əfsuslar olsun ki, işğal 20 ildən çoxdur davam edir və bu işğala heç bir bəraət qazandırmaq olmaz».

Azərbaycan Prezidenti Avropa İttifaqı ilə Şərq Tərəfdaşlığı layihəsi, mədəniyyətlərarası dialoq və digər sahələrdə strateji əməkdaşlığın inkişaf etdirilməsi məsələlərindən də danışıb.

Dövlətimizin başçısı səfər çərçivəsində Avropa Komissiyasının prezidenti Jan-Klod Yunkerlə də görüşüb. Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlıq, əlaqələrin bundan sonra da inkişaf etdiriləcəyinə əminlik ifadə olunub. Vurğulanıb ki, yeni əməkdaşlıq və tərəfdaşlıq sənədi üzərində iş gedir və bu sənəd imzalanandan sonra münasibətlərimiz bütün sahələrdə daha da möhkəmlənəcək və genişlənəcək.

Söhbət zamanı Azərbaycanın dünya ölkələri, o cümlədən Avropa İttifaqı ilə sivilizasiyalar və mədəniyyətlər arasında dialoq, təhsil və humanitar sahələrdə yaxşı əməkdaşlıq əlaqələrinin qurulduğu bildirilib, iqtisadiyyatın və ixracın şaxələndirilməsinin prioritet məsələ olduğu diqqətə çatdırılıb.

# Azərbaycan dövləti öz mədəni irsinə böyük diqqətlə yanaşır

Fevralın 2-də Bakının Niyazi küçəsində yerləşən parkda görkəmli dirijor, SSRİ Xalq artisti, maestro Niyazinin abidəsinin açılış mərasimi olub.

Mərasimdə çıxış edən Prezident İlham Əliyev bildirib ki, Niyazi Azərbaycan dirijorluq məktəbinin əsasını qoymuşdur və bu gün onun davamçıları öz sənəti ilə bizi sevindirirlər: «O, Sovet İttifaqında ən tanınmış və ən istedadlı dirijorlardan biri idi. Niyazi Azərbaycanı, Azərbaycan xalqını həm sovet məkanında, həm dünyada layiqincə təmsil edirdi, xalqımızın istedadını nümayiş etdirirdi. Onun dirijorluq sənəti xalqımızın böyük dəyəridir və demək olar ki, Azərbaycan bəstəkarlarının bütün simfonik əsərlərinin birinci dirijoru Niyazi olmuşdur. Dünyada və sovet məkanında dirijor kimi tanınan Niyazi, eyni zamanda, gözəl bəstəkar idi, onun əsərləri bu gün də yaşayır. Onun əsərlərində Azərbaycan musiqi mədəniyyəti özünü büruzə vermişdir».

Ulu öndər Heydər Əliyevlə Niyazinin dostluq əlaqələrindən bəhs edən dövlətimizin başçısı ümummilli liderin həmişə Niyaziyə çox böyük diqqətlə, qayğı ilə yanaşdığını qeyd edib: «Dəfələrlə Niyazi və Həcər xanım bizim evimizdə olmuşlar. O məclislərdə mən də iştirak etmişdim və görürdüm ki, doğrudan da Niyazi çox gözəl insandır. Onu tanıyanlar bilirlər ki, onun çox gözəl xatirələri olmuşdur, gözəl əhvalatlar bilirdi, çox zarafatcıl idi, onda çox böyük yumor hissi var idi. Doğrudan da o xatirələr bu gün də mənim yaddaşımda yaşayır, bu, unudulmaz günlər idi».

Prezident İlham Əliyev Azərbaycan dövlətinin öz mədəni irsinə həmişə böyük diqqətlə yanaşdığını, görkəmli şəxsiyyətlərimizin xatirəsini yaşatdığını, əbədiləşdirdiyini diqqətə çatdırıb.



## BU NÖMRƏMİZDƏ

VERGİ MƏCƏLLƏSİNƏ EDİLMİŞ ƏLAVƏ VƏ DƏYİŞİKLİKLƏR İCTİMAİYYƏTİN DİQQƏT MƏRKƏZİNDƏDİR 2

ELEKTRON TİCARƏTİN VERGİYƏ CƏLB EDİLMƏSİ 3

DƏYİŞİKLİKLƏR VERGİ YÜKÜNÜ AZALDACAQ 4

REGİONLARDA SAHİBKARLIĞIN İNKİŞAFI ÜÇÜN DAHA ƏLVERİŞLİ VERGİ MÜHİTİ FORMALAŞDIRILIR 5

# Vergi Məcəlləsinə edilmiş əlavə və dəyişikliklər ictimaiyyətin diqqət mərkəzindədir

Fevralın 1-də Vergilər Nazirliyində «Vergilər» qəzetinin təşkilatçılığı ilə Vergi Məcəlləsinə edilmiş əlavə və dəyişikliklərlə bağlı «dəyirmi masa» keçirilmişdir. Tədbirdə Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar departamentinin baş direktor müavini Şamil Ərəbov, nazirliyin Hüquq departamentinin baş direktor müavini Anar Rzayev, «Vergilər» qəzetinin baş redaktoru Anar Əliyev, Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının vitse-prezidenti Vüqar Zeynalov, konfederasiyanın baş katibi Orxan Bayramov, Azərbaycan İnternet Forumunun prezidenti Osman Gündüz, İqtisadi Tədqiqatlar Mərkəzinin rəhbəri Qalib Toğrul, «İqtisadi resursların öyrənilməsi» İctimai Birliyinin sədri Ruslan Atakişiyev, birliyin sədr müavini Radil Fəfullayev, «Azad İstehlakçılar» İctimai Birliyinin sədri Eyyub Hüseynov və iqtisadçı-ekspert Rəşad Əliyev iştirak etmişlər.



### İctimai təşkilatlarla əməkdaşlıq vergi islahatlarının cəmiyyətə çatdırılmasında mühüm əhəmiyyət kəsb edir

***«Vergilər» qəzetinin baş redaktoru Anar Əliyev*** dəyirmi masa arxasında toplaşanları salamlayaraq bildirmişdir ki, 2017-ci il yanvarın 1-dən qüvvəyə minmiş Vergi Məcəlləsinə əlavə və dəyişikliklər vergi inzibatçılığının və vergi uçotunun təkmilləşdirilməsi və şəffaflaşdırılması, vergi ödəyicilərinin hüquqlarının genişləndirilməsi, vergi yükünün azaldılması baxımından mühüm əhəmiyyət kəsb edir. Məcəllədə sahibkarların hüquq və mənafelərinin qorunması, vergi güzəştləri və vergi yükünün azaldılması ilə bağlı yeni müddəalar ölkəmizdə biznesin daha sürətlə inkişaf etməsi üçün zəmin yaradır.

O, qeyd etmişdir ki, Vergilər Nazirliyi vergi sahəsində baş verən bütün yeniliklərin cəmiyyətə təqdim olunmasında ölkənin tanınmış iqtisadçılarına, vətəndaş cəmiyyəti institutlarının nümayəndələrinə böyük önəm verir: «İctimai sektorun nümayəndələri ilə açıq dialoq şəraitində aparılan səmərəli müzakirələr vergi sahəsində həyata keçirilən islahatların, qanunvericilikdə edilən dəyişikliklərin mahiyyətinin cəmiyyətə çatdırılması baxımından çox vacibdir. Bu cür müzakirələr vergi mədəniyyətinin formalaşmasında, vətəndaşların vergiyə aid biliklər əldə etməsində böyük rol oynayır.

İndiki şəraitdə vergi ödəyicilərinin məcburi vergi yığımlarından könüllü vergi ödəmələrinə keçməsi mühüm amillərdəndir. Azərbaycanda bu göstərici artıq 70 faizdən yuxarıdır. Vergi orqanları ölkə vətəndaşları arasında vergi mədəniyyətini inkişaf etdirmək üçün təbliğat, məlumatlandırma və maarifləndirmə işini gücləndirir. Bu sahədə ictimai qurumların rolu xüsusi əhəmiyyət kəsb edir».

> Vergilər Nazirliyi vergi sahəsində baş verən bütün yeniliklərin cəmiyyətə təqdim olunmasında ölkənin tanınmış iqtisadçılarına, vətəndaş cəmiyyəti institutlarının nümayəndələrinə böyük önəm verir

Bildirilmişdir ki, vergi mədəniyyətinin formalaşmasında, bu sahədə yeniliklərin vətəndaşlara çatdırılmasında, ortaya çıxan məsələlərin həllində Vergilər Nazirliyinin rəsmi internet saytı və «Vergilər» qəzeti mühüm rol oynamaqdadır: «Ümumi maraqlarımızı ifadə edən məsələlərin müzakirəsi üçün «Vergilər» qəzeti müntəzəm şəkildə «dəyirmi masa»lar təşkil edir və bugünkü tədbir də həmin silsilədəndir. Tədbirin keçirilməsində əsas məqsəd vergi islahatlarının və bu sahədə görülən işlərin cəmiyyətə daha anlaşıqlı formada təqdim edilməsindən ibarətdir».

### Sahibkarlar dəyişikliklərlə bağlı ətraflı şəkildə məlumatlandırılır

***Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar departamentinin baş direktor müavini Şamil Ərəbov*** Vergi Məcəlləsinə edilmiş əlavə və dəyişikliklərin böyük bir qisminin sahibkarların fəaliyyəti üçün daha əlverişli şərait yaradılmasına xidmət etdiyini diqqətə çatdırmışdır. Bildirmişdir ki, kiçik və orta biznesə dövlət dəstəyi tədbirlərinin nümunəsi olaraq bir sıra sahələrə vergi güzəştləri tətbiq olunmuşdur: «Buğdanın idxalı və satışı, buğda ununun və çörəyin istehsalı və satışı, quş ətinin isə satışı 3 il müddətinə ƏDV-dən azad edilmişdir. Banklar tərəfindən fiziki şəxslərin əmanəti üzrə ödənilən illik faiz gəlirləri 7 il gəlir vergisindən, icbari tibbi sığorta və səhiyyə xidmətləri göstərən qurumların gəlirləri isə müddətsiz olaraq mənfəət vergisindən azad edilmişdir. Digər bir güzəşt sayəsində ödəmə qabiliyyətini itirmiş bankların sağlamlaşdırma tədbirləri çərçivəsində qeyri-işlək aktivləri 2017-ci il yanvarın 1-dən 3 il müddətinə ƏDV-dən azad edilmişdir».

Ş.Ərəbov qeyd etmişdir ki, islahatların ən mühüm istiqamətlərindən biri vergi yükünün azaldılması və pərakəndə ticarət fəaliyyətində ƏDV-nin ticarət əlavəsindən hesablanmasıdır: «Kiçik və orta sahibkarlığı stimullaşdırmaq, pərakəndə ticarətdə rəqabət mühitini təmin etmək və vergi yükünü optimallaşdırmaq məqsədilə pərakəndə ticarət fəaliyyəti ilə məşğul olan sahibkarlar tərəfindən Azərbaycanda istehsal edilmiş kənd təsərrüfatı məhsullarının satışı zamanı ƏDV 2017-ci il yanvarın 1-dən həmin məhsulların satış qiyməti ilə onların alış qiyməti arasındakı fərqdən, yəni ticarət əlavəsindən hesablanmaqdadır. Sahibkarların vergi yükünün azaldılması ilə yanaşı, onların dövriyyə vəsaitlərinə qənaət edilməsi, habelə ixracı stimullaşdırmaq məqsədilə ixrac fəaliyyəti ilə məşğul olan şəxslərin apardıqları əməliyyatlardan yaranan ƏDV üzrə artıq ödənilmiş vergilərin qaytarılması müddəti 45 gündən 20 günə endirilmişdir. ƏDV əməliyyatları aparan başqa şəxslər üzrə yaranmış artıq ödəmələr digər vergi öhdəlikləri ilə 3 ay müddətində əvəzləndikdən sonra 20 gün müddətində qaytarılır. Vergi güzəştləri və azadolmalarla bağlı dəyişikliklər vergi ödəyicilərinin dövriyyə vəsaitlərindən səmərəli istifadə etmələrinə şərait yaradacaq, sahibkarlığın inkişafına dəstək verəcəkdir».

Vergitutma bazasının genişləndirilməsi məqsədilə Məcəlləyə edilmiş dəyişikliklərlə bağlı bildirilmişdir ki, sadələşdirilmiş verginin ödəyicisi olan hüquqi şəxslərin əmlak vergisinə cəlb olunması, idxal edilən xəz-dəri mallarından 10% aksiz vergisinin tutulması, eləcə də yaxtalara, bahalı minik avtomobillərinə, qiymətli zinət əşyalarına tətbiq edilən aksiz dərəcələrinin 2-3 dəfə artırılması bu siyasətin tərkib hissəsidir.

Tədbir iştirakçılarına elektron ticarətin vergiyə cəlb olunması, sabit verginin tətbiqi barədə də geniş məlumat verilmişdir: «Sabit vergi fərdi qaydada, yəni muzdlu işçi cəlb etmədən bir sıra fəaliyyət növləri ilə məşğul olan fiziki şəxslərin vergi öhdəliklərinin aylıq sabit vergi şəklində müəyyən edilməsini nəzərdə tutur. Bu verginin ödəyiciləri üçün Bakı, Sumqayıt və regionlar üzrə fərqli əmsallar müəyyən edilmişdir. Regionlarda çalışan şəxslər Bakı ilə müqayisədə 4 dəfə az sabit vergi ödəyəcəklər. Sabit vergi ödəyiciləri üçün bəyannamə təqdim etmək də tələb olunmur: onlar, sadəcə, vergi orqanlarına ödəniş qəbzlərini təqdim etməklə öz öhdəliklərini yerinə yetirmiş hesab olunurlar».

Ş.Ərəbov qanunvericiliyə edilmiş digər dəyişikliklərin də mahiyyətini şərh etmiş, sahibkarların məlumatlandırılması məqsədilə regionlarda və Bakı şəhərində silsilə tədbirlərin keçirildiyini, sahibkarları maraqlandıran sualların ətraflı şəkildə cavablandırıldığını və sahibkarlara vergiyə aid bütün məsələlər haqqında onlayn rejimdə vergi orqanı əməkdaşları tərəfindən məlumat almaq imkanlarının təmin edildiyini bildirmişdir.

### Borclu vergi ödəyicilərinə nəzarət məqsədilə risk qrupları müəyyən edilib

***Vergilər Nazirliyinin Hüquq departamentinin baş direktorunun müavini Anar Rzayev*** vergi ödəyicilərinin şəffaf uçot sisteminin qurulması, 2017-ci ildə vergi nəzarəti tədbirlərinin səmərəliliyinin artırılması məsələlərinə münasibət bildirirək qeyd etmişdir ki, uçot sisteminin tam şəffaflaşdırılması məqsədilə elektron auditin geniş tətbiqi nəzərdə tutulub: «Dövlətimizin vergi siyasətinin əsas hədəflərindən biri sahibkarlarla vergi orqanı arasında birbaşa təmasın minimuma endirilməsi və əlaqələrin elektron qaydada həyata keçirilməsidir. Bununla əlaqədar Vergi Məcəlləsinə elektron auditin vergi ödəyicisinin elektron formatda saxlanılan maliyyə məlumatlarına xüsusi proqram təminatı vasitəsilə birbaşa və ya məsafədən çıxış imkanı yaradılmaqla həyata keçirilən vergi yoxlaması barədə anlayış və elektron auditin vergi orqanının qərarına əsasən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada aparılması ilə bağlı maddələr daxil edilmişdir».

Qeyd olunmuşdur ki, borclu vergi ödəyicilərinə nəzarətin daha səmərəli təşkili məqsədilə risk qruplarının müəyyən edilməsi qaydaları hazırlanaraq təsdiq olunmuşdur. Qaydalar vergi borcunun ödənilməsi məqsədilə vergi orqanları tərəfindən borclu vergi ödəyiciləri ilə müvafiq maarifləndirmə və məlumatlandırma işlərinin həyata keçirilməsini əhatə edir: «Bu, həm avtomatlaşdırılmış qaydada, həm də bilavasitə vergi orqanlarının əməkdaşları tərəfindən həyata keçiriləcək. Avtomatlaşdırılmış qaydada maarifləndirmə və məlumatlandırma tədbirləri zamanı vergi orqanı tərəfindən keçirilmiş vergi nəzarəti nəticəsində dövlət büdcəsinə yaranmış vergi borcları barədə bildirişlə yanaşı, bildirişin göndərildiyi tarixdə borclu vergi ödəyicilərinin mobil telefonuna avtomatik olaraq qısa SMS-lər göndəriləcək».

### Vergi islahatları sahibkarlıq sektorunda yeni işgüzar şəraitin yaranmasına müsbət təsir edəcək

***Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının vitse-prezidenti Vüqar Zeynalov*** vergi sahəsində aparılan islahatların sahibkarlıq sektorunda yeni işgüzar şəraitin yaranmasına müsbət təsir edəcəyini, regionlarda çalışan biznes nümayəndələrinin fəaliyyəti üçün əlavə stimullar yaradacağına əminliyini ifadə etmişdir. Kənd təsərrüfatı istehsalçıları üçün bir sıra güzəştlərin tətbiqi, eləcə də pərakəndə ticarət fəaliyyətində ƏDV-nin ticarət əlavəsindən hesablanması vergi yükünün azaldılması, ticarət fəaliyyətinin optimallaşdırılması deməkdir: «ƏDV-nin ticarət əlavəsindən hesablanması ticarət şəbəkələrində pərakəndə satış qiymətlərinin aşağı düşməsinə imkan yaradır. Təəssüf ki, bəzi hallarda bu cür stimullaşdırıcı addımlar qiymətlərin azalmasına səbəb olmur. Məsələn, kitab satışı, uşaq bağçaları və digər sahələr indiyədək vergi güzəştləri ilə əhatə olunmuşdur. Amma bu sahələrdə heç bir qiymət tarifi dəyişmədi. Pərakəndə ticarət şəbəkələri verilmiş yeni imkanlardan istifadə edib istehlakçılara satdıqları kənd təsərrüfatı məhsullarının qiymətlərini aşağı salmalıdırlar».

Nağdsız hesablaşmalar haqqında qanunvericiliyə edilmiş dəyişikliklər barədə fikirlərini bölüşən V.Zeynalov ölkəmizdə nağdsız ödəmə mədəniyyətinin hələ lazımi səviyyəyə çatmadığını vurğulamışdır: «Ölkədə nağdsız ödənişlərlə bağlı infrastruktur yaradılsa da, ödəniş xidmətləri yaxşı səviyyədə deyil. Neçə ildir ki, mən bütün ödənişlərimi kartla həyata keçirirəm, təəssüf ki, bir çox hallarda problemlərlə üzləşirəm. Kiçik və orta marketlərin böyük qismində kartla ödəniş etmək mümkün deyil, POS-terminallar işləmir. Kafelərdə, demək olar ki, POS-terminallar yoxdur. Ona görə də bu sistemin işləkliyini təmin etmək, hər iki tərəfi nağdsız ödənişlərdə maraqlı olmağa həvəsləndirmək üçün yeniliklər tətbiq edilməlidir. Bu sahəni stimullaşdırmaq lazımdır. Nağdsız ödənişlər məhdudlaşdırıcı deyil, təşviqedici xarakter daşımalıdır. Xarici ölkələrdə kart sahiblərinin hesabına müəyyən qədər bonus yüklənir. Bizim ticarət şəbəkələrində isə POS-terminalların tətbiq etdiyi komisyon haqlar yüksək olduğundan insanlar buna maraq göstərmirlər. Bəzi hotellər kartla ödəniş apararkən 18% əlavə pul hesablayırlar. Belə olan halda nağdsız ödənişlərə kim maraq göstərər?

Ölkəmizdə xeyli sayda pensiyaçı var, onların hər biri kart sahibidir, pensiya veriləndə bankomatların qarşısında uzun növbələr yaranır, bu insanları nağdsız alış-verişə cəlb etmək üçün güzəşt edilsə, stimullaşdırıcı vasitələr tətbiq olunsa, heç kim bankomatın qarşısında vaxt itirməyəcək».

Nağdsız hesablaşmaları stimullaşdırmaq üçün bank sisteminin işinin də əsaslı şəkildə yenidən qurulmalı olduğunu vurğalayan V.Zeynalov bu sahədə vahid tarifin tətbiqini vacib saydığını diqqətə çatdırmışdır: «Hər bankın öz komisyon haqqı var. Vətəndaşın kart hesabı olan bank komisyon haqqı tutmur, digər banklar yüksək faiz tutduğundan kart sahibi məcburdur ki, «öz bankının» bankomatından pul çıxartsın və nəticədə bankomatın qarşısında növbələr yaranır. Bu sahəni də nizamlamaq üçün müvafiq tədbir görülməlidir. Əvvəlcə bank sistemində qayda-qanun yaradılmalıdır ki, nağdsız ödəmələri stimullaşdırmaq mümkün olsun».

V.Zeynalov Azərbaycanda rəqabət qabiliyyətli məhsul istehsal edən və məhsullarını xaricə satan sahibkarlara güzəşt edilməsinin də vacibliyini vurğulamışdır.

> ƏDV-nin ticarət əlavəsindən hesablanması ticarət şəbəkələrində pərakəndə satış qiymətlərinin aşağı düşməsinə imkan yaradır

### Vergi orqanı ilə ödəyici arasında fikir ayrılığının qarşısının alınmasında ortaq məxrəc tapmaq şərtdir

***«İqtisadi resursların öyrənilməsi» İctimai Birliyinin sədri Ruslan Atakişiyev*** vergi mühitinin cəlbediciliyinin artırılması yolu ilə iqtisadiyyata investisiya qoyuluşlarının təşviq edilməsi, dürüst və şəffaf vergi uçotunun qurulması və uçot sisteminin yeniləşdirilməsi ilə bağlı aparılmış islahatları müsbət qiymətləndirdiyini demişdir: «Elektron qaimə-fakturanın tətbiqini indiki şəraitdə ən yaxşı islahat kimi dəyərləndirirəm. Bu, operativliyin təmin edilməsinə, inzibatçılıq xərclərinin azaldılmasına, sahibkarların xərclərini təsdiq edən sənədlərə malik olmaqla gələcək vergi nəzarəti tədbirləri zamanı vergi orqanları ilə fikir ayrılıqlarının qarşısının alınmasına və şəffaflığın təmin edilməsinə şərait yaradacaq».

R.Atakişiyev qeyd etmişdir ki, ən mühüm dəyişikliklərdən biri Məcəllədə vergidən yayınma hallarının qarşısının alınması ilə bağlı yeni maddələrin öz əksini tapmasıdır: «Vergi öhdəliklərindən yayınma hallarına qarşı yeni qaydalar vergi sahəsində ən yaxşı islahatlardan hesab oluna bilər. Könüllü vergi açıqlaması da irəliyə doğru atılmış ən təsirli addımlardandır. Bu dəyişikliyin əsas mahiyyəti səyyar vergi yoxlaması başa çatdıqdan sonra yoxlama zamanı aşkar edilməyən və vergi öhdəliyinin yaranmasına səbəb olan halların vergi ödəyiciləri tərəfindən vergi orqanlarına könüllü bəyan edilməsidir. Könüllü vergi açıqlaması edildiyi halda, vergi ödəyicisi faiz və maliyyə sanksiyasını ödəməkdən azad edilərək yalnız hesablanmış vergi məbləğini ödəyəcək».

Qanunda edilmiş digər dəyişikliklər barədə fikirlərini bölüşən R.Atakişiyev kameral yoxlamaların aparılmasının asanlaşdırılması, vergi orqanlarında risklərin avtomatlaşdırılmış qaydada emalı sisteminin tətbiqi və digər məsələlərin şəffaflığa xidmət etdiyini bildirmişdir.

### «Elektron ticarət haqqında» Qanun təkmilləşdirilməlidir

***Azərbaycan İnternet Forumunun prezidenti Osman Gündüz*** elektron ticarətin vergiyə cəlb olunmasının e-ticarət sektorunda indiyə kimi mövcud olan nizamsızlığın aradan qalxmasına, nəzarətin təmin olunmasına imkan yaradacağına inandığını vurğulamışdır: «Hazırda Azərbaycanda yerinə yetirilən e-ticarət zamanı ƏDV ödənilir. Amma bu, indiyədək xaricdən alınan mal və xidmətlərə şamil edilmirdi. 2017-ci ildən xarici ölkələrdən elektron formada alınan bütün xidmətlər 18% ƏDV-yə cəlb olunmuşdur. Bu, vergiqoyma ilə bağlı məsələlərdir. Elektron ticarət çoxşaxəli bir sahədir, onun bütün seqmentləri nəzərə alınmalıdır. Bankların buna necə hazır olduğu aydınlaşdırılmalıdır. E-ticarət zamanı bütün ölkələrdə müxtəlif texniki çətinliklər meydana çıxır, əməliyyatların təhlükəsizliyinə nəzarət etmək xeyli mürəkkəbdir. Texniki infrastrukturun vəziyyəti öyrənilməlidir. Dünyanın böyük ödəniş şirkətlərinin bu məsələyə mövqeyi maraq doğurur, onların da rəyləri nəzərə alınmalıdır. Məsələn, «Google», «Google Play», «Uber», «Facebook», «eBay», «Amazon», «Aliexpress» kimi şirkətlərlə problemlərin meydana çıxmaması üçün onların tövsiyələrini də öyrənmək vacibdir. Bunlar elektron ticarətin səmərəliyi və inkişafı üçün çox vacib amillərdir».

O.Gündüz elektron ticarət sahəsində mövcud olan digər problemlərin həlli üçün qanunvericiliyin təkmilləşdirilməsinin vacibliyini diqqətə çatdırmışdır: «Elektron ticarət haqqında» Qanun 2005-ci ildə qəbul olunmuşdur. Ötən 12 ildə ölkəmizdə, iqtisadi həyatda və internet sektorunda çox mühüm dəyişikliklər baş versə də, bazar hələ də həmin qanunla tənzimlənir. Qanuna vergi ilə əlaqədar dəyişikliklər edilmişdir. Amma bu sənəd fundamental şəkildə dəyişilməlidir».

O.Gündüz e-ticarət, elektron «pul kisəsi», ödəmə terminalları və digər məsələlərlə bağlı cəmiyyətdə sual doğuran məqamların olduğunu və bu məsələnin bütün detallarının ictimaiyyətə geniş çatdırılması üçün Vergilər Nazirliyi ilə birgə təşviqedici addımların atılmasını zəruri saydığını bildirmişdir: «E-ticarətlə bağlı ortaya çıxan qaranlıq məqamları aydınlaşdırmağa ehtiyac var. Vergilər Nazirliyində banklar, beynəlxalq və yerli elektron ödəniş şirkətləri, digər müvafiq qurumların nümayəndələrinin iştirakı ilə elektron ticarət və vergitutma məsələlərinə dair geniş tədbirin keçirilməsi məqsədəuyğundur».

**Davamı 3-cü səhifədə**

# Vergi Məcəlləsinə edilmiş əlavə və dəyişikliklər ictimaiyyətin diqqət mərkəzindədir

Əvvəli 2-ci səhifədə

Osman Gündüz bildirmişdir ki, «Vergilər» qəzetinin təşkil etdiyi bu cür tədbirlərin keçirilməsi vergi sahəsində maarifləndirmə işinin aparılması baxımından çox təqdirəlayiq haldır. Təklif edirəm ki, belə görüşlər tez-tez keçirilsin, ictimai təşkilatların nümayəndələri ilə vergi orqanlarını bir araya gətirən bu cür layihələr cəmiyyətdə vergi mədəniyyətinin formalaşmasında da mühüm rol oynaya bilər, insanları maraqlandıran bir sıra məsələlərə aydınlıq gətirilmiş olar.

### Qanunvericiliyə dəyişikliklər təşviqedici xarakter daşıyır

***İqtisadi Tədqiqatlar Mərkəzinin rəhbəri Qalib Toğrul*** Vergi Məcəlləsinə edilmiş dəyişikliklərə həm sahibkarların, həm də vergi orqanlarının mənafeləri baxımından yanaşaraq, ümumilikdə islahatların ölkədə biznes mühitinin yaxşılaşdırılması, şəffaf uçotun qurulması, könüllü vergi ödəmələrinin təmin olunması üçün yaxşı zəmin yaratdığını bildirmişdir: «Dəyişikliklərin əksəriyyəti vergidən yayınma risklərinin minimuma endirilməsinə yönəldilmişdir və bu, təqdir olunmalıdır. Onların sırasında məhdudlaşdırıcı xarakter daşıyanlar da var. Amma ümumilikdə dəyişikliklər daha çox təşviqedici xarakter daşıyır. Bu baxımdan, vergi qanunvericiliyinə edilmiş dəyişiklikləri müsbət qiymətləndirmək mümkündür».

Q.Toğrul Məcəlləyə edilmiş dəyişikliklərin əhatəli və kifayət qədər çox olmasını nəzərə alaraq, cəmiyyətə dolğun və təfərrüatlı şəkildə çatdırılması üçün maarifləndirmə tədbirlərinə geniş yer verilməsini məqsədəuyğun hesab etdiyini diqqətə çatdırmışdır: «Təşviqedici tədbirlər sırasında vətəndaş cəmiyyətinin potensialından maksimum istifadə olunmalıdır. İctimai qurumlar, o cümlədən bizim təşkilat maarifləndirmə işləri aparırıq, verilişlər hazırlayıb internetə yerləşdiririk, mətbuata dəyişikliklərin şərhi barədə açıqlamalar veririk. Amma bu sahədə daha geniş maarifləndirici işlər aparmaq olar, Vergilər Nazirliyi ilə vətəndaş cəmiyyətinin daha səmərəli əməkdaşlığı buna öz töhfəsini verər. Bunun üçün ən yaxşı platforma kimi nazirlikdə ictimai şuranın yaradılmasıdır. İctimai şura dövlət siyasətinin həyata keçirilməsində vətəndaş iştirakçılığının ən mütərəqqi formasıdır».

**İctimai təşkilatların nümayəndələri ilə vergi orqanlarını bir araya gətirən bu cür layihələr cəmiyyətdə vergi mədəniyyətinin formalaşmasında da mühüm rol oynaya bilər, insanları maraqlandıran bir sıra məsələlərə aydınlıq gətirilmiş olar**

Bu məsələyə münasibətini bildirən Osman Gündüz qeyd etmişdir ki, «ASAN xidmət»də yaradılmış ictimai şuranın rəhbəri kimi vergi orqanında da belə bir platformanın yaradılmasını çox faydalı olardı. Bu, cəmiyyətin vergi sistemində aparılan yeniliklər haqqında geniş təşviqedici məlumatlar əldə etməsində mühüm rol oynaya bilər: «Vergilər Nazirliyi hazırda ən çox elektron xidmətlər göstərən, vətəndaşların diqqətində olan əsas dövlət qurumudur. Cəmiyyət daim bu nazirliyin gördüyü işlərlə maraqlanır. Ona görə də həyata keçirilən islahatların, aparılan dəyişikliklərin ictimaiyyətə geniş təqdim olunmasında ictimai təşkilatlarla əməkdaşlığın rolu olduqca vacibdir, bu, məlumat əldə etmə, maarifləndirmə, təşviqat baxımından mühüm əhəmiyyət kəsb edir».

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının baş katibi Orxan Bayramov bildirmişdir ki, dəyişikliklərə sahibkarların prizmasından yanaşdıqda onlar üçün pozitiv hallarla bərabər, müəyyən narahatlıq doğuran məqamlar da mövcuddur: «Sahibkarlar nağdsız hesablaşmalara tətbiq edilən limitin bəzi irihəcmli əməliyyatlar üçün kifayət etmədiyini bildirirlər, bu zaman onlardan tutulan 1% həcmində verginin gəlirlərinə təsir edəcəyindən narahatdırlar. Onlar bu qaydaların məhdudlaşdırıcı hal yaradacağını düşünürlər. Bundan əlavə, bəzi dəyişikliklərin mahiyyəti sahibkarlara tam aydın deyil, buna görə də maarifləndirmə tədbirləri, vergi orqanlarının səlahiyyətli nümayəndələri ilə görüşlər davam etdirilməlidir».

### İslahatlar şəffaflığın və uçotun düzgün təşkilini tələb edir

***«İqtisadi resursların öyrənilməsi» İctimai Birliyinin sədr müavini Radil Fəfullayev*** diqqəti vergi sahəsində şəffaflıq məsələsinə yönəldərək, elektron auditin tətbiqini bu sahədə ən uğurlu layihə kimi qiymətləndirdiyini demişdir: «Vergi orqanları vergi ödəyicilərinin bütün maliyyə sənədlərini, mühasibat kitablarını, hesabatları, smetaları, nağd vəsaitləri, qiymətli kağızları və başqa qiymətliləri, bəyannamələri və vergilərin hesablanması və ödənilməsi ilə bağlı olan digər sənədləri qanunvericiliklə müəyyən edilmiş qaydada məsafədən elektron qaydada yoxlayacaqlar. Bu, vergi ödəyicilərinə qarşı yeni yanaşmadır».

R.Fətullayev aylıq sabit vergi, eləcə də hüquqi şəxslər və fərdi sahibkarlar tərəfindən pul vəsaitlərinin nağd qaydada bank hesablarından çıxarılmasına görə 1 faiz sadələşdirilmiş verginin tətbiqi, e-ticarət mövzularına toxunmuş, bu sahədə yeniliklərin vergi nəzarətinin və şəffaflığın möhkəmlənməsinə təkan verəcəyinə əminliyini bildirmişdir.

### Sahibkarlar əlavə vergi hesablanmasından və maliyyə sanksiyalarından qoruna biləcəklər

***İqtisadçı-ekspert Rəşad Əliyev*** Vergi Məcəlləsinə edilmiş əlavə və dəyişikliklərdən danışarkən mühüm yeniliklərdən biri kimi elektron qaimə-fakturaların tətbiqinin vergi nəzarətinin daha da təkmilləşdirilməsinə səbəb olacağına əminliyini ifadə edərək, bu sistemin tətbiqi zamanı bir sıra məsələlərin nəzərə alınmasının vacibliyini də qeyd etmişdir: «E-qaimə-faktura vergi ödəyiciləri üçün kağız formasında olan sənədləşdirmənin məhdudlaşdırılmasına, alış-veriş əməliyyatlarının elektron qaydada həyata keçirilməsinə şərait yaradacaq. Elektron qaimə-fakturanın tətbiqinə aprel ayında başlanılacaq, ona görə də həmin müddətə qədər bir sıra məqamlar nəzərə alınmalıdır. E-vergi hesab-fakturaların tərtibi zamanı satıcı sənədi elektron qaydada alıcıya göndərəcək və bununla da proses bitmiş hesab olunacaq. Lakin satıcının sənədi göndərməsi ilə prosedur bitməməli, alıcının sistem vasitəsilə onu qəbul və ya ondan imtina etmək imkanları da bu sistemdə öz əksini tapmalıdır. Bundan başqa, elektron qaimə-fakturalar mal, iş və xidmətlərin təhvil-təslimini nəzərdə tutur, bu proses zamanı alıcı və satıcı arasında çoxlu sayda mübahisələr meydana çıxır. Məsələn, satıcı malı göndərir, alıcı isə bəzi səbəblərə görə onu qəbul etmir. Ona görə də belə hallar indidən nəzərə alınmalıdır».

R.Əliyev yeni dəyişikliklərin ən mühüm istiqamətlərindən biri kimi vergi öhdəliklərinin əvvəlcədən müəyyən edilməsinin əhəmiyyətinə də diqqət çəkərək bildirmişdir ki, bu, ödəyiciləri əlavə vergi hesablanmasından və sanksiyalardan qoruyur: «Bu sistemin tətbiqi biznes sektoru üçün risklərin qarşısını alacaq, onların vergi öhdəliklərini müəyyən etmələrinə imkan yaradacaq. Məsələn, hansısa sahibkar 10 milyon manatlıq sövdələşmə həyata keçirmək istədiyi zaman vergi orqanının iştirakı ilə gələcəkdə yarana biləcək öhdəlikləri qabaqcadan müəyyən edəcək. Bu isə əməliyyatların daha rahat və asan aparılmasına şərait yaradacaq».

### Vergi orqanı ilə əməkdaşlıq istehlakçı hüquqlarının qorunmasına şərait yaradır

***«Azad istehlakçılar» İctimai Birliyinin sədri Eyyub Hüseynov*** vergi islahatlarının dinamik xarakter daşıdığını, sahibkarlıq mühitinin daha da sağlamlaşmasına və sahibkarların geniş fəaliyyətinə imkan yaratdığını diqqətə çatdırmışdır. Bildirmişdir ki, əlverişli biznes mühitinin təmin edilməsinə, dövlətin verdiyi güzəşt və imtiyazlara baxmayaraq, təəssüf ki, bəzi sahibkarlar bundan sui-istifadə edirlər. İstehlakçıların hüquqlarının pozulması halları da buna aiddir: «İstehlakçıların hüquqlarının müdafiəsi haqqında» Qanunda ölkə ərazisində bütün istehlakçılara bərabər şərait yaradılması nəzərdə tutulmuşdur. Bu məqsədlə alğı-satqı prosesində, işlərin görülməsi, xidmətlərin göstərilməsində istehsalçı və istehlakçı arasında münasibətlərin tənzimlənməsinin, istehlakçıların hüquqlarının müdafiəsinin konkret mexanizmləri müəyyənləşdirilmişdir. Qanunda göstərilmişdir ki, kassa çeki istehlakçının hüququnun qorunmasında əsas sənədlərdən biridir, o, istehlakçını məhkəmə çəkişmələrində qoruyan əsas sənəd hesab olunur. Çox təəssüf ki, bir sıra ticarət və xidmət obyektlərində istehlakçılara kassa çeki təqdim olunmur. Bizim təşkilata ünvanlanan şikayət və müraciətlərin 98%-i kassa çekinin verilməməsi ilə bağlıdır. Həmin şikayətlər əsasında Vergilər Nazirliyinə müraciət edirik və nazirliyin müdaxiləsindən sonra problemin 95-97%-i istehlakçıların xeyrinə həll olunur. Bu, istehlakçıların hüquqlarının qorunması baxımından çox təqdirəlayiq haldır. İstehlakçıların ən çox narazılıq etdikləri məsələlərdən biri də alınmış malların adlarının çeklərdə göstərilməməsi ilə bağlıdır. Gələcəkdə qanunvericiliyə dəyişikliklər edilən zaman həmin məsələnin də nəzərə alınması yaxşı olardı».

E.Hüseynov yanacaqdoldurma məntəqələrində müştərilərə təqdim edilən çeklərdə malın alış qiyməti ilə qalığın arasında fərqlərin olduğunu, bunun müvafiq qurumların iştirakı ilə araşdırılmasını da təklif etmişdir.

Açıq dialoq və qarşılıqlı müzakirələrin davam edən tədbirdə vergi orqanı ilə ictimai qurumlar, vətəndaş cəmiyyəti institutları arasında əməkdaşlığın daha da genişləndirilməsi, vergi sahəsində aparılan islahatların ictimai müzakirəsində onların iştirakının təmin edilməsi təklif olunmuşdur.

*Hazırladılar:*
**Elbrus CƏFƏRLİ,**
**Fəxriyyə İKRAMQIZI**

## Elektron ticarətin vergiyə cəlb edilməsi

Azərbaycanda elektron ticarətin vergiyə cəlb edilməsi ilə bağlı Vergi Məcəlləsində və «Elektron ticarət haqqında» Azərbaycan Respublikası Qanununda dəyişikliklər edilmişdir.

Dəyişikliklər, əsasən, elektron ticarətin əhatə dairəsinin genişləndirilməsini, elektron ticarətin əsas iştirakçılarından olan kart təşkilatının, təcrübədə geniş tətbiq edilən «pul kisəsi» anlayışını, habelə elektron ticarətin iştirakçısı olan satıcıya dair tələbləri müəyyən edən normaları özündə əks etdirir.

«GoldenPay» şirkətinin və «Hesab.az» onlayn-ödəniş portalının təsisçisi və rəhbəri Fərid İsmayılzadə bu dəyişikliklərin rəqəmsal iqtisadiyyat çərçivəsində aparılan əməliyyatların vergiyə cəlb edilməsi üçün işlək mexanizm yaradılmasındakı rolu ilə bağlı danışaraq bildirmişdir ki, «Elektron ticarət haqqında» Qanun 2005-ci ildə qəbul edildiyindən müasir qlobal dünya elektron ticarət qanunları ilə ayaqlaşmırdı. Bu sahənin indiki sürətli inkişafı qanunvericilikdə vaxtaşırı dəyişikliklərin edilməsini qaçılmaz edir.

Qeyd olunmuşdur ki, indi xarici saytlardan xidmətlərə 18% ƏDV, elektron «pul kisələri»nə isə 10% vergi tutulur: «Məqsəd ölkədən gedən pul kütləsinə təsir etməkdir. Hesab edirəm ki, bu dəyişikliklərin nəticəsini ölçmək üçün bir müddət vaxt keçməlidir. Elektron ödənişlərin ən təqdirəlayiq cəhəti odur ki, onu rahat şəkildə hesablamaq və cəmi bir neçə saat içində analiz etmək olur».

Qanuna edilmiş dəyişikliklərdə «elektron ticarət» anlayışı dəqiqləşdirilmiş, POS-terminal, kart təşkilatı və elektron «pul kisəsi» anlayışları əlavə edilərək, onların ətraflı izahları verilmişdir: «Bunlara ehtiyac vardı. Bu cür dəyişikliklər davam etdirilməlidir. Əminəm ki, 1 il sonra daha yeni ödəniş metodları meydana gələcəkdir ki, onları da əlavə etməli olacağıq».




**Nağdsız, internet üzərindən ödənişlərin təşviq olunması üçün müvafiq addımlar atılmasına ehtiyac var**

Vergi Məcəlləsinin 168.1.5-ci maddəsinə edilmiş əlavəyə əsasən, elektron ticarətin satıcıları (təchizatçıları) tərəfindən işlər və xidmətlər təqdim edildiyi, habelə elektron qaydada təşkil olunan lotereyalar, digər yarışlar və müsabiqələr keçirildiyi halda, işlərin və ya xidmətlərin alıcısının yerləşdiyi və ya qeydiyyatda olduğu, təsis edildiyi, işlər və ya xidmətlər alıcının daimi nümayəndəliyi ilə bilavasitə bağlı olduğu halda, həmin daimi nümayəndəliyin olduğu yer ƏDV məqsədləri üçün işlərin görüldüyü və ya xidmətlərin göstərildiyi yer hesab edilir.

Vergi Məcəlləsinin 169.1-ci maddəsinə edilmiş əlavəyə əsasən, ƏDV-nin məqsədləri üçün qeydiyyata alınmayan qeyri-rezident Azərbaycan Respublikasının ərazisində Vergi Məcəlləsinin 169.2-ci və ya 169.5-ci maddələrində adı çəkilən vergi agenti üçün xidmət göstərirsə və ya iş görürsə (o cümlədən elektron ticarət qaydasında Azərbaycan Respublikasının hüdudlarından kənarda otel xidmətlərinin və aviabiletlərin sifarişi üzrə xidmətlər istisna olmaqla, işlərin görülməsi və xidmətlərin göstərilməsi), ƏDV məqsədləri üçün işlərin görülməsi və ya xidmətlərin göstərilməsi bu maddəyə uyğun qaydada vergiyə cəlb olunur.

ƏDV-nin hesablanması üçün elektron ticarət vasitəsilə xidmət və ticarəti birbirindən ayırmaq lazım idi. F.İsmayılzadə bu məsələyə dəqiqlik gətirərək demişdir: «Amma gəlin unutmayaq ki, söhbət xarici saytlardakı xidmət və ya məhsul alış-verişindən gedir. Ölkədaxili elektron ticarəti inkişaf etdirmək, elektron ödənişləri stimullaşdırmaq da gözəl olardı».

Qanuna dəyişikliklər elektron ticarətin təşviq edildiyi və edilməliyi hallar üçün bərabər imkanların yaradılmasını təmin etməyə yönəlmiş, həmçinin müxtəlif növ iş və xidmətlərin ölkə daxilində inkişaf etməsini təşviq edir.

Azərbaycanda elektron ticarətin inkişafı ilə vergiyə cəlb edilməsini uzlaşdırmaq üçün ən optimal yolu F.İsmayılzadə belə izah etmişdir: «Bizim ölkəmizdə də daxili elektron ticarət var. İndi hər ay ölkəmizdə internet vasitəsi ilə 15 milyon manatdan çox elektron ödəniş olur. Amma bu ödənişlərin 90 faizi xidmətə aiddir. Yəni 15 milyonun 14 milyonu əhalinin kommunal, mobil və s. borclarının ödənməsini əhatə edir. Burada vergi ilə bağlı hər şey qaydasındadır. Amma əhalimiz internet üzərindən məhsul alanda, kinoya bilet sifariş edəndə, hər hansı bir turistik xidməti bron edəndə elektron ödənişlərdən, demək olar ki, istifadə etmir. Siz bu sahədə çalışan istənilən təşkilatın əməliyyatları ilə maraqlansanız, görərsiniz ki, gəlirlərinin təxminən 90 faizi nağd ödənişlərlə aparılır. Mənə elə gəlir ki, bu amili nəzərə alaraq nağdsız, internet üzərindən ödənişlərin təşviq olunması üçün müvafiq addımlar atılmasına ehtiyac var».

**Fəxriyyə İKRAMQIZI**

## Birgə müəssisə Avropa bazarlarına çıxır

Gürcüstanın Rustavi şəhərində fəaliyyət göstərən «AG Microelectronics» Azərbaycan-Gürcüstan birgə müəssisəsi yaxın vaxtlarda yeni məhsulların istehsalına başlayacaq. Bu məhsullar yerli bazarla yanaşı, MDB və Avropa bazarlarına da çıxarılacaq.

Müəssisənin maliyyə direktoru İosif Mazmişvili bildirib ki, müəssisə 2013-cü ildə yaradılıb. Hazırda müəssisədə LED lampaları, LED Televizorlar, «TV Box» və rəqəmsal texnologiyalar üçün ehtiyat hissələri, dekorativ lampalar, eləcə də köhnə lampalardan dəfələrlə qənaətli, 100 Vt-lik lampalar gücünə malik yeni 7 və 9 Vt-lik elektrik lampaları istehsal olunur. Bu lampaların tərkibində həm də insan sağlamlığına ziyan vuran civə və digər kimyəvi maddələr yoxdur.

Müəssisədə istehsal olunan televizorlar üçün Koreya Respublikası və digər ölkələrdən ekran və digər avadanlıq gətirilir. Bu televizorların qiyməti ölçüsündən və keyfiyyətindən asılı olaraq dəyişir. Hazır məhsullar əsasən Gürcüstanda, bir hissəsi isə Azərbaycanda satılır. Yaxın vaxtlarda müəssisədə planşetlərin, notebook və mobil telefonların istehsalına başlanılacaq. Artıq həmin məhsulların sınaq istehsalı həyata keçirilib. Bu məhsulların Azərbaycanda da satışı nəzərdə tutulub.

Müəssisənin məhsullarına MDB ölkələrində də maraq var. Müəssisə rəhbərliyi, eyni zamanda, məhsullarını Avropa bazarlarına çıxarılması istiqamətində də danışıqlar aparır.

İ.Mazmişvili deyib ki, Gürcüstan ilə Avropa İttifaqı arasında əldə olunmuş razılığa əsasən, Gürcüstandan Avropaya satılacaq məhsullar üçün gömrük rüsumu ödənilməyəcək: «Bu da bizim Avropa bazarlarına çıxışımızı xeyli asanlaşdırır. Biz artıq bu istiqamətdə danışıqlar aparırıq və düşünürəm ki, yaxın vaxtlarda məhsullarımızı Avropada da sata biləcəyik».

## Azərbaycanda işləyən əcnəbilərin sayı artır

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin məlumatına əsasən, 2017-ci il fevralın 1-nə Azərbaycanda fərdi uçot sistemində qeydiyyatda olan xarici vətəndaşların sayı 34 min 213 nəfərə çatıb ki, bu da ilin əvvəlinə olan göstəricidən 0,8% çoxdur.

Bu ilin yanvar ayında Dövlət Sosial Müdafiə Fondunun fərdi uçot sistemində 273 nəfər əcnəbi işçiyə fərdi şəxsi hesab açılıb. Azərbaycanda fərdi uçot sistemində fərdi şəxsi hesabı olan əcnəbilər 125-dək ölkəni təmsil edirlər. Onların arasında sayca daha çox olan Türkiyə, Gürcüstan və Rusiya vətəndaşlarıdır. 1 yanvar 2017-ci il tarixinə fərdi uçot sistemində qeydiyyatda olan sığortaolunanların ümumi sayı 33 min 94 nəfər təşkil edib.

## Azərbaycan elektrik enerjisi satır

Türkiyənin ötən il Yunanıstan, Bolqarıstan, Gürcüstan və Azərbaycandan alınan elektrik enerjisinin həcmi 17,8% azalaraq 4 mlrd. 366 mln. 780 min kilovat/saat səviyyəsinə enib. 2015-ci ildə isə Türkiyə 5 mlrd. 313 mln. 935 min kilovat/saat elektrik enerjisi idxal etmişdi.

2016-cı ildə Türkiyə ən çox Bolqarıstandan elektrik enerjisi idxal edib. Bolqarıstandan idxal olunan 2 mlrd. 745 mln. 497 min kilovat/saat enerji üçün 127 mln. 436 min 573 dollar ödəyib. Siyahıda Bolqarıstandan sonra Yunanıstan, Azərbaycan və Gürcüstan gəlir.

İl ərzində Yunanıstandan idxal etdiyi 750 mln. 973 min kilovat/saat elektrik enerjisi üçün 42 mln. 659 min 741 dollar ödəyən Türkiyə, Azərbaycandan 645 mln. 633 min kilovat/saat elektrik enerjisi alıb və bunun üçün 34 mln. 90 min 317 dollar ödəyib.

## Vergi ödəyicisinin sualı var...



Samirə Musayeva
Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar departamentinin baş direktoru vergi ödəyicilərinin suallarına cavab verir

# Çek kitabçası ilə hesablaşmalar

***ƏDV məqsədləri üçün qeydiyyata alınmış müəssisə tərəfindən digər vergi ödəyiciləri ilə çek kitabçası vasitəsilə hesablaşmalar nağdsız hesablaşmalara aid edilirmi?***

Azərbaycan Respublikasının «Nağdsız hesablaşmalar haqqında» 16 dekabr 2016-cı il tarixli Qanununun 3.1-ci maddəsinə əsasən, nağdsız hesablaşma dedikdə, bir şəxsin bank hesabından digər şəxsin bank hesabına köçürülməklə (o cümlədən ödəniş alətləri (ödəniş kartları, ödəniş tapşırığı və s.) və ödəniş vasitələri ilə (mobil telefon aparatları, kompüter və digər avadanlıq), ödəniş terminalları ilə, birbaşa nağd qaydada satıcının bank hesabına köçürülməklə həyata keçirilən hesablaşmalar nəzərdə tutulur.

Qanunun 3.5-ci maddəsinin müddəaları nəzərə alınmaqla, ƏDV məqsədləri üçün qeydiyyata alınmış vergi ödəyiciləri və vergi tutulan əməliyyatlarının həcmi ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) iki yüz min manatdan artıq olan ticarət və (və ya) ictimai iaşə fəaliyyəti ilə məşğul olan vergi ödəyiciləri tərəfindən təqvim ayı ərzində ümumi məbləği otuz min manatdan, digər vergi ödəyiciləri tərəfindən isə təqvim ayı ərzində ümumi məbləği on beş min manatdan artıq olan hesablaşmalar üzrə ödənişlər yalnız nağdsız qaydada həyata keçirilməlidir («Nağdsız hesablaşmalar haqqında» Qanun, maddə 3.3).

Müəssisə tərəfindən çek kitabçası ilə ödənişlərin aparılması qanunda nəzərdə tutulmamışdır.

**Qeyd olunanlara əsasən:**

Vergi ödəyiciləri tərəfindən çek kitabçası ilə ödənişlər «Nağdsız hesablaşmalar haqqında» Qanunun 3.3-cü maddəsində nəzərdə tutulan hədlər daxilində həyata keçirilə bilər.

Suallarınızı redaksiyamızın ünvanına: AZ 1073, Bakı ş., Landau küç., 16 və ya **s.musayeva@taxes.gov.az** elektron poçt ünvanına göndərə bilərsiniz

# Kameral vergi yoxlamaları

Qanunvericiliyə əsasən, kameral vergi yoxlaması vergi ödəyicisi tərəfindən verginin hesablanması və ödənilməsi üçün əsas olan sənədlərin təqdim edildiyi gündən 30 gün müddətində keçirilir. Vergi ödəyiciləri tərəfindən müvafiq sənədlərin vaxtında təqdim edilməməsi və ya ümumiyyətlə, sənədləşmənin düzgün aparılmaması səbəbindən kameral qaydada keçirilən vergi yoxlamalarının müddətinin uzadılması halları tez-tez müşahidə olunurdu. Belə halların aradan qaldırılması məqsədilə kameral vergi yoxlamaların konkret olaraq verilmiş bəyannamələr əsasında 30 iş gün ərzində aparılması və bu müddət başa çatdıqdan sonra həmin bəyannamə üzrə kameral vergi yoxlamasının keçirilməsini qadağan edən müddəalar müddətin uzadılmaması Vergi Məcəlləsində öz əksini tapmışdır. Bundan əlavə, Məcəlləyə kameral yoxlamanın vergi bənyannaməsinin təqdim olunduğu vaxtdan 30 iş günü müddətində həyata keçirilməsini və bu müddət başa çatdıqdan sonra həmin bəyannamə üzrə yenidən kameral vergi yoxlamasının keçirilməsini qadağan edən maddələr də daxil edilmişdir. Qanunvericilikdə edilmiş dəyişikliyə əsasən, kameral yoxlama başa çatdıqdan sonra vergi orqanı tərəfindən verginin hesablanması üçün əlavə sənəd və ya mənbəyi məlum olan digər məlumat aşkar olunduqda, vergi ödəyicisinə dəqiqləşdirilmiş bəyannamənin 10 iş günü müddətində təqdim edilməsi barədə bildiriş göndərilir. Vergi ödəyicisi tərəfindən dəqiqləşdirilmiş vergi bəyannaməsi təqdim edildikdən sonra isə kameral yoxlamanın keçirilməsi məhdudlaşdırılır.

Onu da qeyd edək ki, vergi nənzarətinin həyata keçirilnməsi və ölkəmizin tərəfdar çıxdığı beynəlxalq müqavilələrə əsasən daxil olmuş sorğuların icrası ilə bağlı zəruri sənədlərin və ya onların lazımi qaydada təsdiq edilmiş surətlərinin vergi orqanının müraciəti əsasında 20 gün əvəzinə 10 iş günü müddətində təqdim olunması barədə də qanunvericiliyə dəyişiklik edilmişdir.

> Qanunvericilikdə edilmiş dəyişikliyə əsasən, kameral yoxlama başa çatdıqdan sonra vergi orqanı tərəfindən verginin hesablanması üçün əlavə sənəd və ya mənbəyi məlum olan digər məlumat aşkar olunduqda, vergi ödəyicisinə dəqiqləşdirilmiş bəyannamənin 10 iş günü müddətində təqdim edilməsi barədə bildiriş göndərilir

Vergi ödəyicisi tərəfindən bəyannamə təqdim edildiyi tarixdən 30 gün sonra vergi orqanları tərəfindən aşkar olunmuş hər hansı uyğunsuzluq barədə vergi ödəyicisində kameral yoxlama keçirilmədən ona həmin uyğunsuzluq barədə 5 iş günü ərzində bildirişin göndərilməsi vergi ödəyicilərinin hüquqlarının qorunmasına xidmət edir.

**Rəşad SADIQOV**

## RƏQƏMLƏRİN DİLİ İLƏ

- Ötən il ərzində yeni yaradılmış müəssisə və təşkilatların **97,4%**-i xüsusi mülkiyyətli (o cümlədən **6,7%**-i tam xarici investisiyalı, **1,7%**-i birgə mülkiyyətli), **0,1%**-i bələdiyyə mülkiyyətli, **2,5%**-i isə dövlət mülkiyyətli müəssisələrin payına düşür.
- Azərbaycanda qeydiyyatda olan müəssisə və təşkilatların **54,1%**-i Bakı şəhərində yerləşir.
- Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən martın 7-də keçiriləcək hərracа **78** dövlət əmlakı çıxarılıb.
- Azərbaycanda fəaliyyət göstərən 32 bankın 2016-cı il 31 dekabr tarixinə cəmi aktivləri **31,439.5 milyon** manat, cəmi öhdəlikləri isə **29,530.7 milyon** manat təşkil edib.

# Dəyişikliklər vergi yükünü azaldacaq

## Vergi Məcəlləsinə edilmiş əsas dəyişikliklərdən biri əlavə dəyər vergisi ilə bağlıdır

Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar departamentinin baş direktorunun müavini Nicat İmanov dəyişikliyi şərh edərək demişdir ki, ƏDV-yə olunan dəyişikliklər vergi ödəyicilərinin vergi yükünün azaldılmasına, onların dövriyyə vəsaitlərindən səmərəli istifadə etmələrinə şərait yaradacaq: «Bu vergi növü ilə bağlı edilən əlavə və dəyişiklikləri bir neçə istiqamətə ayırmaq olar. Onlardan biri aqrar sahənin inkişafının təşviqi məqsədilə kənd təsərrüfatı məhsullarının istehsalı və təqdim olunmasını əhatə edir. Kiçik və orta sahibkarlığın stimullaşdırılması, pərakəndə ticarətdə rəqabət mühitinin təmin edilməsi və vergi yükünün optimallaşdırılması məqsədilə Vergi Məcəlləsinə yeni - 13.2.60-cı, 13.2.61-ci, 13.2.62-ci, 13.2.63, 13.2.64-cü maddələr əlavə edilməklə «kənd təsərrüfatı məhsullarının istehsalına və satışına», «pərakəndə satış», «topdan-satış» və «ticarət əlavəsi»nin anlayışları verilmiş, Məcəllənin 153-cü, 159.1-ci və 174.3-cü maddələrinə edilən dəyişikliklərlə isə ƏDV-nin anlayışına dəyişiklik edilmiş, respublika ərazisində istehsal olunan kənd təsərrüfatı məhsullarının pərakəndə satışı üçün vergitutma obyektinin ticarət əlavəsi, yəni pərakəndə satış qiyməti ilə alış qiyməti arasında fərq olduğu, ƏDV-nin də həmin məbləğdən hesablanmalı olduğu təsbit edilmişdir: bir şərtlə ki, satıcılar belə malların uçotunu ayrıca aparsınlar. Uçotun tələb olunan şəkildə aparılmasını təmin etməyən vergi ödəyicilərinin mallarının pərakəndə satışında ƏDV ümumi dövriyyədən hesablanmalıdır. Misal üçün: kənd təsərrüfatı məhsullarının pərakəndə satışı ilə məşğul olan ticarət obyekti 45 min manat dəyəri olan malların üzərinə, xərclərini nəzərə alaraq, ƏDV-siz 5000 manat ticarət əlavəsi tətbiq edir. Bu zaman həmin ticarət əlavəsinə 18% ƏDV dərəcəsini tətbiq edərək 900 manat vergi məbləğini müəyyən edir. Malların son satış qiyməti formalaşarkən ilkin dəyər (45.000 manat), ticarət əlavəsi (5000 manat) və ƏDV məbləği (900 manat) cəmlənərək 50.900 manat təşkil edir».

Digər bir istiqamətin ƏDV üzrə güzəştlərin və sıfır (0) dərəcə ilə azadolmaların verilməsi olduğunu deyən N.İmanovun sözlərinə görə, Vergi Məcəlləsinin 164.1.27-ci maddəsinə edilən dəyişikliklə buğdanın idxalı və satışının, buğda ununun və çörəyin istehsalı və satışının ƏDV-dən azadolma müddəti 2017-ci ildən daha 3 il müddətinə artırılmış, «Vergi Məcəlləsinin yeni 164.1.36-cı maddəsi ilə ödəmə qabiliyyətini itirmiş bankların restrukturizasiya və sağlamlaşdırma tədbirləri çərçivəsində qeyri-işlək (toksik) aktivlərin təqdim olunması 2017-ci ildən başlayaraq 3 il müddətinə ƏDV-dən azad edilmişdir. Vergi Məcəlləsinin yeni 164.1.37-ci maddəsi 2017-ci ildən başlayaraq 3 il müddətinə quş ətinin satışının ƏDV-dən azad olunmasını təsbit edir. Vergi Məcəlləsinin yeni 165.4-cü maddəsi fiziki şəxslərin Mədəniyyət və Turizm Nazirliyi tərəfindən müəyyən edilmiş qaydada təşkil edilən ticarət festivalları dövründə fiziki şəxslər tərəfindən Azərbaycan Respublikasının ərazisində alınmış, istehsal yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan mallara görə ödənilmiş ƏDV-nin qaytarılması qaydasını nəzərdə tutur».

N.İmanovun sözlərinə görə, Vergi Məcəlləsinin 168.1.5-ci, 169.1-ci və 169.3-cü maddələrinə edilən əlavə və dəyişikliklər virtual məkanda ƏDV-nin tətbiqini tənzimləyir: «Belə ki, ölkəmizin hüdudlarından kənarda otel xidmətlərinin və aviabiletlərin sifarişi üzrə xidmətlər istisna olmaqla, ƏDV-nin məqsədləri üçün bu məkanda iş və xidmət təqdim edildikdə və ya lotereya, digər yarış və müsabiqə keçirildikdə vergi tutulan əməliyyatın yeri kimi xidmətlərin alıcısının və lotereya, yarış və müsabiqənin iştirakçısının olduğu yer müəyyən edilir. İşin və xidmətin alıcısı, habelə lotereya, digər yarış və müsabiqənin iştirakçısı vergi ödəyicisi olmadıqda ödənişi aparan yerli bank və ya xarici bankın respublikadakı filialı ƏDV-ni hesablayaraq alıcının vəsaiti hesabına büdcəyə ödəyir, tutulmuş ƏDV isə bank və ya filial tərəfindən əvəzləşdirilmir. Azərbaycan vətəndaşı respublika hüdudlarından kənarda qeyri-rezidentin elektron qaydada təşkil etdiyi lotereyada iştirak etmək məqsədilə 100 manat ekvivalentində köçürülən vəsaitə görə iştirakçıdan bank tərəfindən 18 manat (100*18) ƏDV tutularaq büdcəyə ödənilməlidir».



> ƏDV-yə olunmuş dəyişikliklərin həyata keçirilməsi vergitutma bazasının genişləndirilməsi, vergi qanunvericiliyinin beynəlxalq standartlara uyğunlaşdırılması, vergi uçotunun aparılması sahəsində şəffaflığın təmin edilməsi, vergi inzibatçılığının təkmilləşdirilməsi baxımından çox əhəmiyyətlidir

Vergi ödəyicilərinin ƏDV üzrə artıq ödəmələri tənzimləyən digər istiqamət üzrə Vergi Məcəlləsinin 179.1-ci maddəsinə edilən dəyişikliklər hesabat dövründə vergi tutulan dövriyyəsinin azı 50%-i sıfır (0) dərəcə ilə vergiyə cəlb edilən əməliyyatlar olan vergi ödəyicisinin hesabat dövründə ƏDV üzrə artıq ödəməsinin gömrük və vergi orqanına ərizə verildiyi tarixdən əvvəlki kimi 45 gün deyil, 20 gün ərzində ona qaytarılmasını nəzərdə tutur: «Vergi Məcəlləsinin 179.1-ci maddəsində edilən dəyişikliyə görə digər vergi ödəyicilərinin hesabat dövründə yaranmış artıq ödəmələri əvvəlki kimi növbəti 3 aya keçirilir, həmin 3 ay müddət bitdikdən sonra dürüstləşmənin başa çatdırılmasından asılı olmayaraq, vergi tutulan əməliyyatlardan yaranan artıq ödəmənin hər hansı qalığı vergi ödəyicisinin ərizəsinə əsasən 20 gün ərzində büdcədən qaytarılır».

İqtisadi Tədqiqatlar Mərkəzinin idarə heyətinin sədri, iqtisadçı-ekspert Qalib Toğrul hesab edir ki, ƏDV-yə olunmuş dəyişikliklərin həyata keçirilməsi vergitutma bazasının genişləndirilməsi, vergi qanunvericiliyinin beynəlxalq standartlara uyğunlaşdırılması, vergi uçotunun aparılması sahəsində şəffaflığın təmin edilməsi, vergi inzibatçılığının təkmilləşdirilməsi baxımından çox əhəmiyyətlidir: «Bu istiqamətdəki dəyişikliklər həm ƏDV-dən azadolmaları, həm də uzun müddət vergitutmadan kənarda qalan bir sahənin - elektron ticarətin vergiyə cəlb olunmasını əhatə edir. Vergi Məcəlləsinin 164-cü maddəsinə edilən dəyişikliklərlə buğdanın idxalı və satışının, buğda ununun və çörəyin istehsalı və satışının, ödəmə qabiliyyətini itirmiş bankların qeyri-işlək aktivlərinin və quş ətinin satışının 2017-ci ildən başlayaraq 3 il müddətinə ƏDV-dən azad olunması keçid dövrü kimi nəzərdə tutulmuş 3 illik aralıqda qeyri-neft sektorunun təşviq edilməsi, milli sahibkarların dəstəklənməsi baxımından mühüm qərardır».

Onun sözlərinə görə, Vergi Məcəlləsinin yeni 165.4-cü maddəsinə edilən dəyişiklikdən sonra fiziki şəxslərin Mədəniyyət və Turizm Nazirliyi tərəfindən təşkil edilən ticarət festivalları dövründə respublika ərazisində alınan qeyri-istehsal və qeyri-kommersiya təyinatlı mallara görə ödədikləri ƏDV-nin geri qaytarılması ölkəmizdə turizmin inkişafı, əcnəbi turistlərin bu cür festivallara cəlb olunması baxımından çox əhəmiyyətlidir: «Ancaq fikrimcə, ƏDV ilə bağlı ən mühüm dəyişiklik elektron ticarətin vergiyə cəlb olunmasıdır. Məhsul alışı, aviabiletlərin və otellərin sifarişi istisna olmaqla, elektron formada alınan iş və xidmətlərin ƏDV-yə cəlb edilməsi vergitutma bazasının genişləndirilməsini nəzərdə tutur».

Ekspertin fikrincə, ƏDV üzrə artıq ödəmənin gömrük və vergi orqanı tərəfindən geri qaytarılması müddətinin iki dəfədən çox azaldılması vergi ödəyicilərinə dövriyyə vəsaitlərindən istifadənin səmərəliliyini yüksəltməyə imkan verməklə yanaşı, sahibkarın vaxtına qənaət olunması və vergi inzibatçılığının təkmilləşdirilməsi baxımından da qiymətlidir: «Pərakəndə ticarət müəssisələrində yerli kənd təsərrüfatı məhsullarının satışı zamanı ƏDV-nin alış qiymətinə deyil, ticarət əlavəsinə tətbiq olunması bu tip müəssisələrin ƏDV-nin əvəzləşdirilməsi ilə bağlı probleminin həlli və kənd təsərrüfatına dövlət dəstəyinin davam etdirilməsi kimi qiymətləndirilməlidir. Amma daha yaxşı olardı ki, gələcəkdə Vergi Məcəlləsinə növbəti dəyişikliklərdən biri kimi ƏDV-nin diferensiallaşdırılması məsələsinə də diqqət yetirilsin, bəzi spesifik məhsulların istehsalı və satışı ilə bağlı ƏDV-nin daha aşağı dərəcələri nəzərdə tutulsun».

**Aytən NƏBİYEVA**

VERGİ ÖDƏYİCİLƏRİNİN NƏZƏRİNƏ!

"Vergi ödəyicilərinin 2017-ci il 1 yanvar tarixinə mövcud olan vergi borclarının tənzimlənməsi haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən, vergilərin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş müddətdə ödənilməməsinə görə hesablanmış faizlər üzrə 2017-ci il 1 yanvar tarixinə vergi orqanlarındakı şəxsi hesab vərəqələrində mövcud olan borclar, eləcə də vergi orqanları tərəfindən Vergi Məcəlləsinin 58.7 maddəsinə əsasən vergi ödəyicilərinə tətbiq edilən maliyyə sanksiyaları üzrə yaranmış, 2017-ci ilin 1 yanvar tarixinə vergi orqanlarındakı şəxsi hesab vərəqələrində mövcud olan borclar tamamilə silinmişdir.

Fevral ayının 1-dən etibarən vergi ödəyicilərinə tətbiq edilmiş digər maliyyə sanksiyaları üzrə yaranmış vergi borcları isə aşağıdakı şərtlərlə silinə bilər:

- **vergi ödəyiciləri tərəfindən 2017-ci ilin yanvar-fevral ayları ərzində həmin maliyyə sanksiyalarının 50 faizi ödənilərsə, qalan 50 faizi silinir;**
- **vergi ödəyiciləri tərəfindən 2017-ci ilin yanvar-mart ayları ərzində həmin maliyyə sanksiyalarının 70 faizi ödənilərsə, qalan 30 faizi silinir.**

Əlavə məlumat almaq istəyən vergi ödəyiciləri Vergilər Nazirliyinin 195 Çağrı Mərkəzinə, nazirliyin rəsmi internet saytına (www.taxes.gov.az), vergi ödəyicilərinə xidmət mərkəzlərinə yaxud qeydiyyatda olduqları vergi orqanlarına müraciət edə bilərlər.

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

# Regionlarda sahibkarlığın inkişafı üçün daha əlverişli vergi mühiti formalaşdırılır

«Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı» icra edilməyə başlandığı 3 il ərzində ölkə iqtisadiyyatının şaxələndirilməsi siyasətinin güclənməsinə, qeyri-neft sektorunun və regionların inkişafının davamlılığının təmin edilməsinə, infrastrukturun və sosial xidmətlərin təkmilləşdirilməsinə, ümumilikdə bölgələrin hərtərəfli inkişafı sahəsində əhəmiyyətli dəyişikliklərə səbəb olub.

### Bölgələrdə biznes və investisiya mühiti yaxşılaşıb

Dövlət Proqramının icrasının üçüncü ilinin yekunlarına həsr olunmuş konfransda çıxış edən Prezident İlham Əliyev bildirib ki, ötən illər ərzində bölgələrdə həyata keçirilən məqsədyönlü işlər nəticəsində ciddi uğurlar əldə olunub. 2004-cü ildən icrasına başlanmış Dövlət Proqramı şəhər və rayonların simasını köklü şəkildə dəyişib, regionların potensialının artmasına, infrastruktur təminatının, kommunal xidmətlərin keyfiyyətinin, biznes və investisiya mühitinin yaxşılaşmasına və əhalinin rifahının yüksəlməsinə şərait yaradıb.

Ötən il müasir sənaye müəssisələrinin yaradılmasının dəstəklənməsi, sənaye parklarının və məhəllələrinin təşkili işləri davam etdirilib. Sumqayıt Kimya Sənaye Parkına xarici və yerli investorlar tərəfindən investisiya qoyuluşları artıb. Mingəçevir Sənaye Parkında yüngül sənaye sahələri üzrə 9 fabrikin yaradılması ilə bağlı layihələr icra olunur, Qaradağ Sənaye Parkının yaradılması istiqamətində işlər davam etdirilir. Neftçala sənaye zonasında infrastrukturun yaradılması başa çatdırılıb və artıq 7 şirkət qeydə alınıb. Ağstafada sənaye zonası yaradılıb, Masallıda layihələndirmə işləri aparılır, digər rayonlarda sənaye zonalarının yaradılmasına hazırlıq görülür. Ümumilikdə, ötən il aparılan tədbirlər nəticəsində regionlarda 147 sənaye müəssisəsi açılıb, qeyri-neft sənayesində 5 faiz artım əldə olunub.

**Regionlardan vergi daxilolmaları son 15 ildə 17, son 10 ildə isə 4 dəfədən çox artıb**

### Ötən il 148 min yeni daimi iş yeri açılıb

2016-cı ildə sahibkarlıq fəaliyyəti üçün tələb olunan lisenziyaların sayı və verilmə müddətinin azaldılması, prosedurların sadələşdirilməsi, sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması, gömrük sahəsində nəzarətin həyata keçirməsi ilə əlaqədar bəzi yoxlamaların sadələşdirilməsi regionlarda azad biznesin inkişafını sürətləndirib, yeni iş yerlərinin yaradılmasında mühüm rol oynayıb. İl ərzində sahibkarlıq sahəsində cəmi 60 yoxlama keçirilib. Müqayisə üçün: 2015-ci ildə bu yoxlamaların sayı 62 minə yaxın olmuşdu.

Ötən il respublika üzrə 148 mini daimi olmaqla, 190 minə yaxın yeni iş yeri yaradılıb ki, bunların 74%-dən çoxu regionların payına düşür. Yeni iş yerlərinin 65%-i qeyri-dövlət sektoruna aiddir və 60%-dən çoxu fərdi sahibkarlıq subyektləri tərəfindən açılıb. Dövlətin azad biznesə yaratdığı imkanlarla bərabər, sahibkarlığa maliyyə dəstəyi də artıb. Prezidentin vurğuladığı kimi, dövlət milli sahibkarlıq sektoruna öz dəstəyini əsirgəməyib, sahibkarlara siyasi və maddi dəstək verib. Dövlətin və özəl biznesin bölgələrdə fəallığı artıb və regionların inkişafına 4 milyard manat vəsait yönəldilib.

### Regionlardan vergi daxilolmaları son 15 ildə 17, son 10 ildə isə 4 dəfədən çox artıb

Regionların sosial-iqtisadi inkişafı ilə bağlı həyata keçirilən siyasət ölkənin müxtəlif bölgələrində iqtisadiyyatın və sahibkarlığın daha intensiv inkişafına münbit şərait yaradıb, regionlardan vergi ödənişlərinin ümumi daxilolmalarda payının əhəmiyyətli dərəcədə artmasına səbəb olub, ədalətli rəqabət mühitinin formalaşdırılması sayəsində vergi siyasətinin iqtisadi inkişafa təsiri daha da yüksəlib.

Regionlarda fəaliyyət göstərən hüquqi və fiziki şəxslərin dövlət büdcəsinə ödədikləri vergi və digər ödənişlərin tam və ya qismən şəhər və rayonların yerli gəlirlərinə aid edilməsi ilə əlaqədar həyata keçirilən tədbirlər bu istiqamətdə əhəmiyyətli dəyişiklərə şərait yaradıb. Əhalinin böyük əksəriyyətinin regionlarda kənd təsərrüfatı ilə məşğul olmasına, ailə-kəndli təsərrüfatlarının və digər sahələrin uzun illər vergidən azad edilməsinə baxmayaraq, regionlardan vergi daxilolmaları 2012-ci ildəki 33,6 milyon manatdan, 2007-ci ildə 144,5 milyon manata, 2016-cı ildə isə 600,8 milyon manata çatıb.

**Elbrus CƏFƏRLİ**

## BİR CÜMLƏ - BİR XƏBƏR

Rusiya Federasiyasında, Belarusda və Ukraynada Azərbaycanın ilk ticarət nümayəndəlikləri yaradılacaq.

Azərbaycan və Çin arasında bağlanmış müqaviləyə əsasən, artıq bu ölkəyə şərab ixracına başlanılıb.

Pakistan Azərbaycandan neft, neft məhsulları və maye qaz idxalı ilə bağlı saziş imzalamağa hazırlaşır.

Azərbaycan sahibkarları 2017-ci ildə dövlət dəstəyi ilə Gulfood (BƏƏ), Prowein (Almaniya), Worldfood (Rusiya), Anuga (Almaniya), Hong Kong International Wine & Spirits Fair (Çin) kimi ən nüfuzlu beynəlxalq sərgilərdə vahid ölkə stendi ilə iştirak edəcəklər.

Azərbaycanın ixrac missiyası Əfqanıstanın paytaxtı Kabilə səfər edib.

Azərbaycan mənşəli qeyri-neft məhsullarını ixrac edən sahibkarlara məhsulun növünə görə ixrac dəyərinin 3-6% məbləğində ixrac təşviqinin ödənilməsinə başlanılıb.

Yun istehsalı və emalı sahəsində Çin, Avstraliya, Qazaxıstan və digər ölkələrin təcrübəsi öyrəniləcək.

Bakıda keçiriləcək IV İslam Həmrəyliyi Oyunlarına hazırlıqla bağlı Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Turizm Assosiasiyası və bir sıra sahə ekspertlərinin birgə səyi ilə otellərdə «Halal standartı» adlı layihə hazırlanıb.

Azərbaycan və Qazaxıstan əcnəbi turistlər üçün birgə turizm paketləri hazırlamağı planlaşdırırlar.

## ELAN

ASAN imza sertifikatının qüvvədə olma müddəti 3 il olduğundan və 2014-cü ilin fevral və növbəti aylarında alınmış sertifikatların etibarlılıq müddəti 2017-cı ilin fevral və növbəti aylarında bitəcəyindən, ASAN imza sertifikatının yenisini almaq üçün qüvvədə olan ASAN imzanız vasitəsilə www.asxm.gov.az/portal/login portalına daxil olub müvafiq ərizəni, müqaviləni və etibarnamələri imzaladıqdan sonra ASAN imza sim kartını dəyişərək vergi ödəyicilərinə xidmət mərkəzlərinə və ya ASAN xidmət mərkəzlərinə yaxınlaşa bilərsiniz.

ASAN imza ilə əlaqədar əlavə sualınız yaranarsa, Vergilər Nazirliyinin 195-1 Çağrı Mərkəzinə, rəsmi internet saytının «Sual-cavab» bölməsinə www.taxes.gov.az/www.taxes/faq/sual.html və www.asxm.gov.az internet ünvanına müraciət edə bilərsiniz.

**Vergilər Nazirliyinin Asan Sertifikat Xidmətləri Mərkəzi**

# Qaimə-fakturalarla bağlı dəyişiklik uçotun dəqiq aparılmasına xidmət edir

Ölkəmizdə mal, iş və xidmətlər üzrə əməliyyatların rəsmiləşdirilməsi sahəsində mövcud vəziyyətin təhlili göstərir ki, qaimə-fakturaların kağız formasında tətbiqi uçotun lazımi səviyyədə təşkil olunmamasına və nəticə etibarilə vergidən yayınma hallarına gətirib çıxarırdı. Xüsusən topdansatış fəaliyyəti ilə məşğul olan şəxslər tərəfindən malların təqdim edilməsi zamanı bir sıra hallarda ciddi hesabat blanklarından istifadə olunmurdu, bu isə vergitutma obyektinin müəyyən edilməsində çətinliklər yaradırdı.



Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar departamentinin şöbə rəhbəri Əvəz Quliyevin sözlərinə görə, Vergi Məcəlləsinə topdan və pərakəndə ticarət fəaliyyəti ilə məşğul olan vergi ödəyicilərini fərqləndirən meyarları nəzərdə tutan anlayışlar, sahibkarlıq fəaliyyəti subyektləri arasında malların, işlərin və xidmətlərin təqdim edilməsi ilə bağlı qaimə-fakturaların, elektron qaimə-fakturaların, elektron vergi hesab-fakturaların təqdim olunmasına dair maddələr daxil edilmişdir. Qanunvericilikdə edilmiş dəyişikliklərə əsasən, topdansatış malları alıcıya onun sahibkarlıq fəaliyyəti məqsədləri üçün qaimə-faktura, elektron qaimə-faktura, elektron vergi hesab-fakturası tətbiq edilməklə həyata keçiriləcək. Pərakəndə satış malları isə alıcıya son istehlak məqsədilə qəbz və ya nəzarət-kassa aparatının çeki təqdim olunmaqla satılacaq. Bu məqsədlə Vergi Məcəlləsinə sahibkarlıq fəaliyyəti subyektləri arasında malların, işlərin və xidmətlərin təqdim edilməsi ilə bağlı elektron qaimə-fakturanın təqdim olunmasına dair müddəalar daxil edilmişdir. Məcəlləyə malların alışını təsdiq edən qaimə-faktura, elektron qaimə-faktura və ya elektron vergi hesab-fakturası olmadıqda alıcıya təqvim ili ərzində belə hala birinci dəfə yol verdiyinə görə alınmış malların 10 faizi, ikinci dəfə yol verdiyinə görə 20 faizi, üç və daha çox dəfə yol verdiyinə görə 40 faizi miqdarında maliyyə sanksiyasının tətbiq olunmasını nəzərdə tutan maddə əlavə edilmişdir.

Ə.Quliyev bildirdi ki, sahibkarlıq fəaliyyəti subyektləri öz fəaliyyətləri ilə bağlı bütün əməliyyatlarını qanunvericilikdə nəzərdə tutulmuş qaydada qaimə-faktura, elektron qaimə-faktura və ya e-VHF ilə rəsmiləşdirməlidirlər. Nəzarət-kassa aparatının çeki və qəbz malların alınması ilə bağlı çəkilən xərcləri təsdiq edən sənəd hesab olunmur.

Qeyd edilən qanunla ƏDV-nin məqsədləri üçün qeydiyyata alınmış və vergi tutulan əməliyyatlarının həcmi ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) 200.000 manatdan artıq olan ticarət və (və ya) ictimai iaşə fəaliyyəti ilə məşğul olan şəxslər tərəfindən sahibkarlıq fəaliyyəti ilə əlaqədar təqdim edilmiş (yola salınmış) mallara, görülmüş işlərə və göstərilmiş xidmətlərə görə 1 aprel 2017-ci il tarixdən, bütün digər vergi ödəyiciləri tərəfindən isə 1 yanvar 2018-ci il tarixdən malların, işlərin və xidmətlərin alıcısı olan hüquqi şəxslərə və fərdi sahibkarlara (malların, işlərin, xidmətlərin sifarişçisinə) elektron qaimə-faktura təqdim edilməlidir.

Bu dəyişikliklər sahibkarlar arasında aparılan əməliyyatların rəsmiləşdirilməsi prosedurunun sadələşməsinə, operativliyin təmin edilməsinə, inzibatçılıq xərclərinin azaldılmasına, sahibkarların xərclərini təsdiq edən sənədlərə malik olmaqla gələcək vergi nəzarəti tədbirləri zamanı vergi orqanları ilə fikir ayrılıqlarının qarşısının alınmasına və şəffaflığın təmin olunmasına xidmət edəcək.

**Rəşad SADIQOV**

# Yeni qaydalar təsdiq olunub

Vergilər Nazirliyinin Kollegiyası ticarət festivalları dövründə ƏDV-nin qaytarılması şərti ilə satış həyata keçirmək üçün vergi ödəyicilərinin qeydiyyatının aparılması qaydasını təsdiq edib. Sənədə əsasən, bu hüququ almaq üçün satıcı ƏDV ödəyicisi kimi qeydiyyatdan keçməli, pərakəndə ticarət fəaliyyəti ilə məşğul olmalı, nəzarət-kassa aparatına və işlək POS-terminala malik olmalı, vergilərlə bağlı dövlət büdcəsinə borcu və digər öhdəliyi olmamalıdır.

Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar departamentinin Vergi siyasəti idarəsinin direktoru Nərmin Hacıyeva sənədi şərh edərək bildirmişdir ki, ticarət festivalları dövründə ƏDV-nin qaytarılması şərti ilə satış həyata keçirmək istəyən vergi ödəyicisi satıcı kimi qeydiyyata alınmaq üçün kağız daşıyıcıda və ya elektron formada ərizə ilə vergi orqanına müraciət etməlidir. Vergi ödəyicisi «Ticarət festivalları dövründə ƏDV-nin qaytarılması şərti ilə satış həyata keçirmək istəyən vergi ödəyicisinin satıcı kimi qeydiyyata alınması haqqında ərizə» adlanan bir sənəd ilə eyni zamanda bir neçə təsərrüfat subyekti üzrə satıcı kimi qeydiyyata alınmaq üçün müraciət edə bilər: «Təsərrüfat subyekti satıcı kimi qeydiyyata alınmaq üçün gücləndirilmiş elektron imza ilə İnternet Vergi İdarəsi Portalının «Onlayn» kargüzarlıq bölməsində ərizə formasının müvafiq xanalarını doldurmalıdır. Kağız formasında ərizə isə vergi ödəyicisinin uçotda olduğu vergi orqanına təqdim edilməlidir. Elektron və kağız formasında təqdim olunmuş ərizələr emal edilmək məqsədilə Avtomatlaşdırılmış Vergi İnformasiya Sistemində yaradılmış «Ticarət festivalları dövründə ƏDV-nin qaytarılması şərti ilə satış həyata keçirmək istəyən vergi ödəyicisinin satıcı kimi qeydiyyata alınması haqqında ərizə» pəncərəsinə ötürüləcək. Bundan sonra ərizədəki məlumatlar yoxlanılacaq. Ərizədə aradan qaldırılması mümkün olan çatışmazlıqlar aşkar edilərsə, ərizənin daxil olduğu tarixdən 3 iş günündən gec olmayaraq həmin çatışmazlıqların aradan qaldırılması barədə «Ticarət festivalları dövründə ƏDV-nin qaytarılması şərti ilə satış həyata keçirmək istəyən vergi ödəyicisinin satıcı kimi qeydiyyata alınması üçün təqdim etdiyi ərizədəki çatışmazlıqlar barədə bildiriş» hazırlanacaq və elektron formada vergi ödəyicisinin e-qutusuna və ya kağız daşıyıcıda sifarişli poçt göndərişi vasitəsilə ünvanına çatdırılacaq».

Bir təsərrüfat subyekti üzrə aşkar edilmiş çatışmazlıq ərizədə göstərilən digər təsərrüfat subyektləri üzrə vergi ödəyicisinin satıcı kimi qeydiyyata alınmasını dayandırmır: «Vergi ödəyicisi aşkar olunmuş çatışmazlıqları aradan qaldırdıqdan sonra təkrar ərizə ilə vergi orqanına müraciət edə bilər. Bundan sonra vergi ödəyicisi vergi orqanı tərəfindən 5 iş günündən gec olmayaraq satıcı qismində qeydiyyata alınacaq və bu barədə ona «Ticarət festivalları dövründə ƏDV-nin qaytarılması şərti ilə satış həyata keçirmək istəyən vergi ödəyicisinin satıcı kimi qeydiyyata alınması haqqında arayış» təqdim ediləcək».

ƏDV-nin qaytarılması şərti ilə satış həyata keçirmək istəyən vergi ödəyicisi satıcı kimi qeydiyyata alınmaq üçün kağız daşıyıcıda və ya elektron formada ərizə ilə vergi orqanına müraciət etməlidir

N.Hacıyevanın sözlərinə görə, vergi ödəyicisi satıcı qismində qeydiyyata alındıqdan sonra 10 iş günü müddətində vergi orqanı ərizədə göstərilən təsərrüfat subyektini alıcılara təqdim edilən elektron vergi hesab-fakturalarının tərtib edilməsinə, həmin e-VHF-lər barədə məlumatların aidiyyəti üzrə vahid məlumat bazasına ötürülməsinə imkan verən proqram təminatı ilə, zəruri avadanlıqla təchiz edəcək və bu barədə akt tərtib olunacaq: «Satıcının yeni təsərrüfat subyekti qeydiyyatdan keçdikdə həmin təsərrüfat subyekti üzrə satıcı tərəfindən ƏDV-nin qaytarılması şərti ilə malların satışının həyata keçirilməsi üçün vergi orqanına yenidən ərizə ilə müraciət edilməlidir».

Ticarət festivalları dövründə ƏDV-nin qaytarılması şərti ilə satış həyata keçirmək istəyən vergi ödəyicisinin satıcı qismində qeydiyyatına xitam verilməsi ilə bağlı qeyd edilmişdir ki, əgər Mədəniyyət və Turizm Nazirliyi tərəfindən müəyyən edilmiş ticarət festivallarının təşkili qaydasının tələbləri pozularsa, satıcı fəaliyyəti dövründə iqtisadi fəaliyyət sahəsində cinayətlərə görə cinayət məsuliyyətinə cəlb olunarsa, vergi orqanına təqdim edilmiş vergi hesabatlarında aşkar olunmuş uyğunsuzluqlar və ziddiyyətlər qanunla müəyyən edilmiş müddətdə aradan qaldırılmazsa, bu zaman vergi ödəyicisinin satıcı qismində qeydiyyatına xitam veriləcək: «Satıcı Vergi Məcəlləsi ilə müəyyən olunmuş müddətdə və qaydada vergi hesabatlarını vergi orqanlarına təqdim etməməklə vergilərin dövlət büdcəsinə ödənilməsindən yayındıqda, təsərrüfat subyekti və ya satıcının ƏDV qeydiyyatı ləğv edildikdə və digər hallarda da satıcının qeydiyyatına xitam verilə bilər. Satıcının müraciəti əsasında satıcı kimi qeydiyyatdan çıxarılması «Ticarət festivalları dövründə ƏDV-nin qaytarılması şərti ilə satış həyata keçirən vergi ödəyicisinin satıcı kimi qeydiyyatına xitam verilməsi haqqında ərizə»yə əsasən həyata keçiriləcək. Satıcının qeydiyyatına xitam verilməsinə əsas verən digər hallarda isə onun qeydiyyatı Avtomatlaşdırılmış Vergi İnformasiya Sistemində avtomatik ləğv ediləcək və bu barədə vergi ödəyicisinin elektron qutusuna bildiriş göndəriləcək».

**Aytən NƏBİYEVA**

# Torpaq vergisi

Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar Departamentinin torpaq vergisi ilə bağlı dəyişikliklərə verilmiş şərhində bildirilir ki, 2017-ci ildən təyinatı üzrə istifadə edilən və ya irriqasiya, meliorasiya və digər aqrotexniki səbəblərdən təyinatı üzrə istifadə edilməsi mümkün olmayan kənd təsərrüfatı torpaqlarının vergi dərəcələri torpaqların təyinatı, coğrafi yerləşməsi və keyfiyyəti nəzərə alınmaqla şərti ballar əsasında torpaq sahəsinin hər bir hektarına görə hesablanır. Bir şərti balın qiyməti 6 qəpikdir.

Kənd təsərrüfatı fəaliyyəti üçün nəzərdə tutulan, lakin təyinatı üzrə istifadə olunmayan torpaqlar üzrə torpaq vergisinin dərəcəsi torpaq sahəsinin hər 100 kvadratmetrinə görə 2 manat müəyyən edilib. istifadə olunmayan torpaqlar üzrə fiziki şəxslərin torpaq vergisi dövlət büdcəsinə, digər hallarda isə yerli büdcəyə (bələdiyyə büdcəsinə) ödənilir.

İqtisadçı ekspert Rəşad Əliyev bildirib ki, iqtisadiyyat sahəsində aparılan islahatların ən vacib istiqamətlərindən biri kənd təsərrüfatı sektorunun inkişaf etdirilməsidir. Bu, yeni iş yerlərinin açılmasına və regionların gələcək inkişafına xidmət edəcək: «Azərbaycana idxal edilən bir sıra kənd təsərrüfatı məhsullarını yerli istehsalla əvəz etmək olar. Bu, idxal mallarının alınması ilə əlaqədar ölkədən valyuta çıxışının azalmasına şərait yaradar. Kənd təsərrüfatı sektorunun inkişafına mane olan əsas səbəblərdən biri kənd təsərrüfatı torpaqlarının təyinatı üzrə istifadə edilməməsidir. Bəzən alınmış kənd təsərrüfatı torpaqları istifadəsiz saxlanılırdı, bu isə ölkə iqtisadiyyatının potensialına mənfi təsir göstərirdi».

> Vergitutma məqsədləri üçün torpaqların kateqoriyası təyinatı üzrə istifadə olunan və təyinatı üzrə istifadə olunmayan kənd təsərrüfatı torpaqları, yaşayış fondlarının, həyətyanı sahələrin torpaqları və vətəndaşların bağ sahələrinin tutduğu torpaqlar, sənaye, tikinti, nəqliyyat, rabitə, ticarət-məişət xidməti və digər xüsusi təyinatlı torpaqlar üzrə müəyyən olunur

***Misal 1.*** Kürdəmir rayonunun Muradxan kəndində fiziki şəxsin mülkiyyətində II keyfiyyət qrupuna aid olan 2,5 hektar kənd təsərrüfatı məqsədləri üçün nəzərdə tutulan əkin sahəsi vardır. Bu keyfiyyət qrupu üzrə torpağın 1 hektarı üçün şərti bal 75 müəyyən edilmişdir. Fiziki şəxs qeyd edilən torpaq sahəsinin 2 hektarını taxıl əkini üçün, qalan 0,5 hektarını isə təyinatına uyğun olmayaraq, balıqçılıq təsərrüfatı üçün istifadə edir. Bu halda fiziki şəxsin təyinatı üzrə istifadə edilən 2 hektar torpaq sahəsinə 9 manat (1 hektar əkin sahəsinin şərti balı 75 x 0,06 manat x 2 hektar), təyinatı üzrə istifadə edilməyən 0,5 hektar torpaq sahəsinə görə isə 100 manat (5000 kvadratmetr/100)*2 manat) torpaq vergisi hesablanacaqdır.

***Misal 2:*** Yevlax rayonunda kənd təsərrüfatı məqsədləri üçün nəzərdə tutulan, lakin istifadə olunmayan 2 hektar torpaq sahəsinə görə torpaq vergisi aşağıdakı qaydada hesablanacaq:

(20.000/100) *2 = 400 manat.

**Qeyd:** Müəssisələrin və kənd təsərrüfatı fəaliyyəti üçün nəzərdə tutulan, lakin təyinatı üzrə

R.Əliyevin sözlərinə görə, bu cür neqativ halların aradan qaldırılması məqsədilə vergiqoyma alətindən istifadə edilməsi nəzərdə tutulub: «2017-ci ildə qüvvəyə minmiş yeni dəyişikliklərə əsasən, təyinatı üzrə istifadə olunmayan kənd təsərrüfatı torpaqları vergiyə fərqli formada cəlb ediləcək. Bununla da kənd təsərrüfatı torpaqlarını təyinatı üzrə istifadə etməyən şəxslər torpaq vergisini torpağı təyinatı üzrə istifadə edənlərə nisbətən dəfələrlə çox verəcəklər. Bu isə istifadəsiz qalan torpaqların saxlanma xərcini xeyli artıracaq. Nəticədə torpaq istifadəçisi ya həmin torpağı yenidən istifadə edəcək, yaxud da ondan imtina etməyə məcbur olacaq. İstifadəçi həmin torpaqdan imtina edəcəyi halda (bu, ya satış, yaxud digər formada ola bilər), həmin torpaq sahəsinə marağı yalnız onu kənd təsərrüfatı məqsədləri üçün istifadə etmək istəyənlər göstərəcəklər».

**Fəxriyyə İKRAMQIZI**

# Yeni elektron xidmətlər vergi ödəyicilərinin istifadəsinə verilib

**Vergilər Nazirliyinin Kollegiyasının qərarı ilə «Fiziki şəxsin vergi uçotundan çıxarılması», «Vergi borcu barədə məlumatın verilməsi», «Asan imza istifadəçi İD-sinin dəyişdirilməsi» elektron xidmətlərinin inzibati reqlamentləri təsdiq olunub. Beləliklə, nazirliyin göstərdiyi elektron xidmətlərin sayı 63-ə çatıb.**

### «Fiziki şəxsin vergi uçotundan çıxarılması»

Bu xidmət fiziki şəxsin vergi uçotundan çıxarılması üçün ərizənin vergi orqanına elektron qaydada təqdim edilməsini və onun vergi uçotundan çıxarılmasını əhatə edir. Fiziki şəxsin vergi uçotundan çıxarılması Vergi Məcəlləsi və Vergilər Nazirliyi Kollegiyasının 19 may 2015-ci il tarixli qərarı ilə təsdiq edilmiş «Fiziki şəxslərin vergi uçotuna alınması, yenidən uçota alınması və uçotdan çıxarılması Qaydaları» ilə müəyyən edilmiş prosedurlar başa çatdırıldıqdan sonra 2 iş günü müddətində həyata keçirilir. Xidmətin istifadəçiləri Vergi Məcəlləsi ilə müəyyən edilmiş qaydada vergi ödəyicisinə eyniləşdirilmə nömrəsi (VÖEN) almış fiziki şəxslərdir. Elektron xidmət www.taxes.gov.az; www.e-taxes.gov.az; www.e-gov.az; www.dxr.az elektron ünvanlarında təqdim olunur.

Bu elektron xidmətin göstərilməsi üçün «Fiziki şəxsin vergi uçotundan çıxarılması haqqında» ərizə vergi orqanı tərəfindən qəbul edildikdən sonra aşağıdakı sənədlər vergi orqanına təqdim edilməlidir:

- Vergi ödəyicisi əlavə dəyər vergisinin məqsədləri üçün qeydiyyata alındıqda, qeydiyyatın ləğv edilməsi barədə ərizə (kağız və ya elektron formada);
- Vergi ödəyicisinin uçotda təsərrüfat subyekti (obyekti) olduqda, onların uçotdan çıxarılması barədə ərizə (kağız və ya elektron formada);
- Vergi ödəyicisinin təsərrüfat subyektində qeydiyyata alınmış nəzarət-kassa aparatları olduqda, onların qeydiyyatdan çıxarılması barədə ərizə (kağız və ya elektron formada);
- Vergi ödəyicisinin təsərrüfat subyektində qeydiyyata alınmış POS-terminallar olduqda, onların qeydiyyatdan çıxarılması barədə bank ekvayer tərəfindən ərizə (elektron formada);
- Vergi ödəyicisinin aktiv bank hesabları olduqda, onların bağlanılması barədə banklar tərəfindən göndərilən məlumat (elektron formada);
- Müraciətin edilməsi tarixinə, vergi ödəyicisinin dövlət büdcəsinə vergi borcu olduqda, onun ödənilməsi barədə məlumat;
- Vergi orqanına təqdim edilməmiş bəyannamələr (hesabatlar) olduqda, kağız və ya elektron formada təqdim edilmiş bəyannamələr (hesabatlar).

Fiziki şəxsin vergi uçotundan çıxarılması ərizəsi İnternet Vergi İdarəsi portalının «Onlayn Kargüzarlıq» bölümü üzərindən işlənilir. Bu məqsədlə istifadəçi tərəfindən yuxarıda qeyd edilən internet səhifələrində Vergilər Nazirliyi tərəfindən göstərilən elektron xidmətlərin siyahısından «Fiziki şəxsin vergi uçotundan çıxarılması» xidmət növü seçilməlidir. Açılan ekranda «Yeni müraciət» düyməsi sıxılır və açılan pəncərədə «Kimə» siyahısından Vergilər Nazirliyi, «Müraciətin növü» siyahısından «Ərizə», «Sənədin növü» siyahısından «Fiziki şəxsin vergi uçotundan çıxarılması haqqında ərizə» seçilməli və «Qəbul» düyməsi sıxılmalıdır. Bu zaman sistem tərəfindən istifadəçinin şəxsi məlumatları əsasında ekrana fiziki şəxsin adı, soyadı, atasının adı və qeydiyyatda olduğu rayon çıxarılır. Bundan sonra açılan ekranda ləğv olma tarixi daxil edilir və siyahıdan ləğv olunma səbəbi seçilir. «Ləğv olma tarixi»nin daxil edilməsi zamanı bu tarixin ərizənin təqdim edilmə tarixindən əvvəl seçilməsinə məhdudiyyət nəzərdə tutulmuşdur. Ona görə də ekrana «Ləğv olma tarixi ərizənin təqdim edilmə tarixindən əvvələ ola bilməz» mesajı gələcək. «İrəli» düyməsi sıxıldıqdan sonra daxil edilmiş məlumatların yoxlanılması üçün təsdiqləmə ekranı gəlir. Əməliyyat doğru yerinə yetirildikdə «Tanış oldum, məlumatların doğruluğunu təsdiqləyirəm» ifadəsinin qarşısındakı boş xana işarələnir, bundan sonra «İmzala», daha sonra «Göndər» düyməsi sıxılmalıdır. Ərizə gücləndirilmiş elektron imza ilə imzalandıqdan sonra sistem tərəfindən ekrana onun onlayn qəbul olunması haqqında «Bildiriş» çıxacaq və sənədə 16 rəqəmli qeydiyyat nömrəsi veriləcək.



Vergi orqanında fiziki şəxsin vergi uçotundan çıxarılması barədə icra edilməmiş ərizəsi olduqda sorğunun yerinə yetirilməsindən imtina olunacaq. İstifadəçi tərəfindən «Fiziki şəxsin vergi uçotundan çıxarılması haqqında» ərizə doldurulub imzalandıqdan sonra imtinaya əsas olmadıqda vergi orqanında icraya qəbul olunacaq. İstifadəçi tərəfindən yuxarıda qeyd edilən sənədlər təqdim edildikdən sonra həmin sənədlər üzrə müvafiq prosedurlar başa çatdırıldıqdan sonra istifadəçi 2 iş günü müddətində vergi uçotundan çıxarılacaq.

Bu prosesdə yaranan hər hansı anlaşılmazlığın aradan qaldırılması və ya metodiki dəstəyin göstərilməsi məqsədilə vergi ödəyiciləri Vergilər Nazirliyinin Çağrı Mərkəzinə (195-1) zəng edə bilərlər.

**Aytən NƏBİYEVA**

# Azərbaycan qazı Avropanın enerji təchizatında xüsusi çəkiyə malikdir

Çox güman ki, «Trans-Adriatik» (TAP) qaz boru kəmərinin ikinci mərhələsinin də təbii qaz mənbəyi Azərbaycan qazı olacaq. Bu barədə boru kəmərinin operatoru olan TAP AG şirkətinin kommersiya və xarici əlaqələr üzrə direktoru Ulrike Andres «New Europe»yə bildirib. «Lakin təbii qaz resursları olan iştirakçılar TAP-a qoşulmaq üzrə Avropa İttifaqının tələblərinə uyğun olaraq bunu edə bilərlər. TAP-ın 10 milyard kubmetr tutuma malik birinci mərhələsində iştirakçılar artıq formalaşıb. Lakin qısamüddətli nəqliyyat üçün daşıyıcılar tərəfindən istək olduğu halda mövcud potensialın kiçik hissəsi təkrar bazara çıxa bilər», - deyə U.Andres əlavə edib.

Qeyd edək ki, TAP-ın təməli keçən il mayın 17-də Yunanıstanın Saloniki şəhərində qoyulub. «Trans-Adriatik» qaz boru kəmərinin tikintisi üzrə işlərin təxminən 32 faizi icra olunub. Layihənin ümumi dəyəri 4,5 milyard avro olacaq. Buraya 2009-cu ildən bəri davam edən dizayn və mühəndislik işləri də daxil edilib. «Şahdəniz» konsorsiumu ilk qaz satışını 2018-ci ilin sonunda Türkiyəyə və Gürcüstana həyata keçirəcək. Avropanın ilk qazın verilməsi isə bundan təxminən 1 il sonra, 2020-ci ilin əvvəllərində planlaşdırılır. Bu ilin ilk rübündə layihə üzrə kompressor stansiyalarının tikintisinə də başlanılacaq. Boru kəmərinin dənizi hissəsi isə 2018-2019-cu illərdə inşa ediləcək.

Xəzər dənizinin Azərbaycan sektorundakı «Şahdəniz-2» yatağından hasil olunacaq qazı Türkiyəyə və bu ölkədən də Avropaya daşıyacaq 3 min 500 kilometr uzunluğundakı «Cənub Qaz Dəhlizi»nin tərkib hissəsi olan TAP layihəsi Cənubi Qafqaz Boru Kəmərinin və TANAP-ın davamı olub, «Şahdəniz-2»dən hasil olunacaq qazın Yunanıstan və Albaniya vasitəsilə, Adriatik dənizindən keçməklə İtaliyanın cənubuna, oradan da Qərbi Avropaya nəqlini nəzərdə tutur. TAP boru kəməri TANAP ilə birləşəcək və Yunanıstan-Türkiyə ilə sərhəddə yerləşən Kipoi ərazisindən başlayacaq. Buradan TAP boru kəməri Yunanıstan və Albaniya ərazisini qət edərək şərqdən qərbə Adriatik dənizi sahillərinə doğru istiqamətlənəcək və İtaliyanın Puqlia bölgəsində sahilə çıxacaq. Boru kəməri burada «Snam Rete Gas» şirkətinin istismar etdiyi İtaliyanın qaz nəqliyyatı şəbəkəsinə birləşəcək.

Bu layihə Azərbaycan qazının İtaliya, Almaniya, Fransa, Böyük Britaniya, İsveçrə və Avstriya kimi böyük Avropa bazarlarına çatdırılması üçün böyük imkanlar yaradır. TAP-ın ilkin ötürücülük qabiliyyəti ildə 10 milyard kubmetr olacaq və bu həcmin gələcəkdə 20 milyard kubmetrədək artırılması nəzərdə tutulub. Boru kəmərinin uzunluğu 878 kilometr (Yunanıstan - 550 kilometr, Albaniya - 215 kilometr, Adriatik dənizi - 105 kilometr, İtaliya - 8 kilometr), diametri isə 48 düymdür (sualtı hissə - 37 düym). 2020-ci ilədək layihə üzrə Azərbaycan şirkətlərinin xərclərinin 1,2 milyard dollar olması gözlənilir.

TAP-ın inşasında ümumilikdə 53 mindən çox borudan istifadə olunacaq. Boru kəmərinin Yunanıstan hissəsində 32 min, Albaniya hissəsində 12 min, Adriatik dənizi hissəsində 8 min 750, İtaliya hissəsində isə 660 borudan istifadə ediləcək. Boruların ümumi çəkisi 526 min tondur. Bundan da Albaniya hissəsində 126 min tonu, Yunanıstanda 323 min tonu, dəniz hissəsində 72 min tonu, İtaliyada isə 5 min tonu istifadə olunacaq.

TAP-ın səhmdarları bələdir: BP (20%), SOCAR (20%), «Snam S.p.A.» (20%), «Fluxys» (19%), «Enagas» (16%) və «Axpo» (5%).

## ELAN

**Hörmətli vergi ödəyicisi!**

Fəaliyyətiniz zamanı vergi orqanı əməkdaşları tərəfindən yol verilən korrupsiya və digər hüquqpozma halları ilə rastlaşdıqda, aşağıdakı imkanlardan istifadə etməklə, vergi orqanına müraciət edə bilərsiniz:

* Vergilər Nazirliyinin rəsmi internet səhifəsində (www.taxes.gov.az) «Onlayn müraciətlər» bölməsinin «Vergi orqanı əməkdaşlarının fəaliyyətində korrupsiya və digər hüquqpozma halları barədə məlumat ver» alt bölməsinə;
* Vergilər Nazirliyinin poçt ünvanına və ya Daxili təhlükəsizlik Departamentinə üzərində «MƏXFİ - Daxili təhlükəsizlik Departamentinə» qeydi olan məktubları göndərməklə.
  Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi;
* Daxili təhlükəsizlik Departamentinə gəlməklə və məlumatı şəxsən (şəxsiyyətinizi təsdiq edən sənədlə) təqdim etməklə.
  Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi, Daxili təhlükəsizlik Departamenti;
* Vergilər Nazirliyinin Çağrı Mərkəzinə (195-1) zəng etməklə.

Vergilər Nazirliyi

## vergi təqvimi

| FEVRAL | | | | | | |
|---|---|---|---|---|---|---|
| I | II | III | IV | V | VI | VII |
| | | 1 | 2 | 3 | 4 | 5 |
| 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 |
| 13 | 14 | 15 | 16 | 17 | 18 | 19 |
| 20 | 21 | 22 | 23 | 24 | 25 | 26 |
| 27 | 28 | | | | | |

*Qeyd: Verginin ödənilmə və bəyannamənin (o cümlədən arayışın) verilmə müddətinin sonuncu günü təqvimdə yaşıl rənglə qeyd edilmişdir. Həmin gün istirahət və ya bayram gününə düşdüyü halda növbəti iş gününə keçirilir.*

**Ödənilən vergi:**

15 fevral - «(5)»

20 fevral - «(1-1)», «(1-2)», «3», «4», «7», «8», «(9-1)», «10.1», «10.3»

**«(1-1)» - Gəlir vergisi (xüsusi notariuslar üzrə):** Xüsusi notariusların gəlir vergisi üzrə hesabat dövrü rübdür.

Xüsusi notariuslar tərəfindən hər bir ay ərzində aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) 10 faiz dərəcə ilə gəlir vergisi hesablanmalı, hesablanmış vergi məbləği isə növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir.

**(«1-2») - Uduşlardan (mükafatlardan) əldə edilən gəlirdən ödəmə mənbəyində tutulan vergi:** İdman mərc oyunlarından uduşlar əldə edən şəxsdən ödəmə mənbəyində tutulan gəlir vergisi üzrə hesabat dövrü aydır.

İdman mərc oyunlarından uduşlar əldə edən şəxsə ödəmələr verən şəxslər ödəmə mənbəyində vergini tutmağa, hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq hesablanmış vergini dövlət büdcəsinə köçürməyə və «İdman mərc oyunlarından uduşlar əldə edən şəxsdən ödəmə mənbəyində tutulan gəlir vergisinin bəyannaməsi»ni vergi orqanına verməyə borcludurlar.

**«3» - Əlavə dəyər vergisi:** ƏDV üzrə hesabat dövrü təqvim ayı sayılır. ƏDV ödəyən vergi ödəyicisi ƏDV-nin bəyannaməsini hər hesabat dövrü üçün, hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq qeydiyyatda olduğu vergi orqanına verməli və həmin müddətdə vergini dövlət büdcəsinə ödəməlidir.

**«4» - Aksizlər:** Aksizlər üzrə hesabat dövrü təqvim ayıdır. Aksizli mallar istehsal edildikdə hər hesabat dövrü üçün vergi tutulan əməliyyatlar üzrə aksizlər hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməli və həmin müddətdə vergi orqanına bəyannamə verilməlidir.

**«(5)» - Əmlak vergisi:** Əmlak vergisi üzrə hesabat dövrü təqvim ilidir. Əmlak vergisi ödəyicisi olan hüquqi şəxslər cari vergi ödəmələri kimi hər rübün ikinci ayının 15-dən gec olmayaraq əvvəlki ildəki əmlak vergisinin 20 faizi həcmində dövlət büdcəsinə vergi ödəyirlər. Əvvəlki hesabat ilində əmlak vergisi ödəyicisi olmayan və növbəti ildə bu verginin ödəyicisi olan, habelə yeni yaradılmış və əmlak vergisi ödəyicisi olan hüquqi şəxslər əmlakın əldə edildiyi rübdən sonra hər rübün ikinci ayının 15-dən gec olmayaraq həmin əmlaka görə hesablanmalı olan illik əmlak vergisi məbləğinin 20 faizi miqdarında cari vergi ödəmələrini həyata keçirirlər. Cari vergi ödəmələri vergi ili üçün vergi ödəyicisindən tutulan verginin məbləğinə aid edilir.

**«7» - Yol vergisi** üçün hesabat dövrü təqvim ayı sayılır. Azərbaycan Respublikasının ərazisində avtomobil benzininin, dizel yanacağının və maye qazın istehsalı ilə məşğul olan fiziki və hüquqi şəxslər yol vergisini aylıq olaraq hesablayır və hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq «Yol vergisinin bəyannaməsi»ni vergi orqanına təqdim etməklə vergini dövlət büdcəsinə ödəyirlər.

**«8» - Mədən vergisi:** Mədən vergisi üzrə hesabat dövrü təqvim ayıdır. Mədən vergisinin ödəyiciləri hesabat ayı üçün faydalı qazıntıların çıxarıldığı aydan sonrakı ayın 20-dən gec olmayaraq vergini ödəyir və bəyannamə verirlər. Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi yerli (bələdiyyə) büdcəyə ödənilir və bələdiyyələrə mədən vergisinin bəyannaməsi verilir. Yerli əhəmiyyətli tikinti materiallarına kərpic-kirəmit gilləri, tikinti qumları, çınqıl xammalı aid edilir.

**(«9-1») - Daşınmaz əmlak təqdim edən şəxslərdən ödəmə mənbəyində tutulan sadələşdirilmiş vergi** - Yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsi üzrə müqavilələri təsdiq edən notarius sadələşdirilmiş vergini hesablayaraq 1 (bir) bank günü ərzində dövlət büdcəsinə ödəməyə və hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq «Yaşayış və qeyri-yaşayış sahələrini təqdim edən şəxslərdən notariuslar tərəfindən ödəmə mənbəyində tutulan sadələşdirilmiş vergi bəyannaməsi»ni vergi orqanına verməyə borcludurlar.

**«10.1» - Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi:** Muzdla işləyən fiziki şəxslərə ödəmələr verən hüquqi şəxslər və fərdi sahibkarlar muzdla işləyən fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisini hesablamalı və hesablanmış məbləği növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir.

**«10.3» - Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə ödəmə mənbəyində tutulan vergi:** Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə aparılan ödəmələrdən ödəmə mənbəyində tutulan verginin hesabat dövrü rübdür.

Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə, sığorta haqları ödəyən sığortaçılar fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisi hesablamalı və hesablanmış vergini növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməli və gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq bəyannaməni vergi orqanına təqdim etməlidirlər.

beynəlxalq panoram

## Yaponiya satışdan verginin artırılmasını təxirə salmalıdır

Nobel mükafatı laureatı, görkəmli iqtisadçı Kristofer Sims Yaponiyanın iqtisadi perspektivləri barədə bildirmişdir: «Ölkədə mövcud olan inflyasiyanın Yaponiya Bankının 2 faiz təşkil edən hədəf səviyyəsinə uyğun gəlmədiyi bir şəraitdə Yaponiya satışdan verginin artırılmasını təxirə salaraq öz diqqətini ekspansionist fiskal siyasət üzərində cəmləşdirməlidir.

Fiskal siyasətin aşağı gəlirliliyin saxlanılması üçün Yaponiya Bankı istiqrazlarının davamlı şəkildə satın alınmasına uyğun olaraq inflyasiya ilə əlaqələndirilməsi nominal faiz dərəcələrinin sıfır aşağı hədlərinin meydana gətirdiyi məhdudiyyətləri aradan qaldırmağa kömək edəcək».

## Çikaqoda da «torba vergisi» tutulur

Keçən il Böyük Britaniya mağazalarında alıcılara verilən polietilen torbalar üçün xüsusi vergi tutulmağa başlanmışdı. Xalq arasında «torba vergisi» adlanan bu yığım ekoloji mülahizələrə görə tətbiq edilir. Bu il «torba vergisinin» coğrafiyası bir qədər də genişlənmişdir. Fevralın 1-dən ABŞ-ın Çikaqo şəhərinin pərakəndə satış mərkəzlərində və supermarketlərində alıcılar mağazalarda verilən və ya evdən gətirdikləri paketlər üçün əlavə ödəniş edirlər. «Torba vergisi» hər bir vahid üçün 7 sent təşkil edir.

Çikaqo şəhərinin rəhbərliyi bu vergini mağazaların kassalarında, adətən, alıcılara pulsuz verilən birdəfəlik kağız və polietilen paketlərdən istifadəni azaltmaq tədbiri kimi təqdim etmişdir. Yeni vergi indiyədək kiçik həcmli polietilen torbaların qadağan edilməsini əvəz edir: qadağa qərarı heç də səmərəli nəticə verməmişdir.

Çikaqoda fəaliyyət göstərən mağazalara paketlər üçün vergini ödəmək seçimi verilmişdir: onlar bunu alıcılara verdikləri kassa çekinə vura və ya gələcəkdə ödəmək üçün ayrıca yığım kimi toplaya bilərlər. Aparıcı ticarət şəbəkələri «torba vergisini» - polietilen torbalar üçün xüsusi yığım məbləğini çekə vurduqlarını bildirmişlər.

## ABŞ şirkətləri vergi islahatının dəstəklənməsi aksiyasına başlayıblar

Amerika Birləşmiş Ştatlarında vergi sahəsində ədalətli islahatların tərəfdarı olan RATE koalisiyasını təsis etmiş şirkətlər və biznes assosiasiyaları yeni media kampaniyasına start vermişlər. Kampaniyanın şüarı belədir: «Əsl vergi islahatı tariflərdən başlayır». RATE koalisiyasında 33 şirkət və assosiasiya birləşir ki, onlar da ABŞ-ın bütün ştatlarını təmsil edən 30 milyondan artıq əməkdaşlarının maraqlarından çıxış edirlər. Bu qurum ABŞ-da əsas vergilərdən biri olan korporativ vergi dərəcəsinin əsaslı şəkildə aşağı salınmasına təkan vermək məqsədi daşıyan vergi islahatı təklifini irəli sürmək üçün təşkil edilmişdir.

Hazırda ABŞ-da vergi islahatı barədə söhbətlər idxal mallarına yeni rüsum tətbiq edilməsi kontekstində aparılır. Yeni media kampaniyası isə korporativ verginin dərəcəsinin bütün dünyada rəqabətli həddə endirilməsinə və Amerika şirkətlərini istehsalı ABŞ sərhədlərindən kənara çıxarmağa məcbur etməyən dərəcə müəyyənləşdirilməsinə yönəldilmişdir.



## Finlandiyada MyTax elektron vergi xidməti istifadəyə verilib

Ölkənin vergi xidmətinin məlumatına görə, fevralın 1-dən ƏDV ödəyiciləri bank hesablarının hərəkəti haqqında məlumat verərkən MyTax elektron sistemindən istifadə edirlər.

Vergi xidmətinin açıqlamasında qeyd edilmişdir ki, bu qərarın qəbuluna səbəb hazırda qüvvədə olan ƏDV-nin qaytarılması sistemindən sui-istifadə edilməsidir.

Vergi orqanı tərəfindən bildirilmişdir ki, hazırda ƏDV ödəyiciləri olan şirkətlərin və fiziki şəxslərin, onlar üçün istisna nəzərdə tutulmamışdırsa, ƏDV ilə bağlı kağız formasında hesabat vermək hüququ yoxdur. Kağız formasında hesabat vermək hüququ MyTax elektron xidmətindən istifadə edə bilmədiyini sübut etmiş şəxslər, eləcə də ƏDV ödəyicisi olmayanlara verilir.

## ƏDV üzrə «əks-vergitutma» mexanizmindən istifadəyə icazə verildi

Avropa Komissiyasının irəli sürdüyü təklif Avropa İttifaqına (Aİ) üzv dövlətlərə ƏDV üzrə «əks-vergitutma mexanizmindən istifadə edilməsini genişləndirməyə imkan yaradacaq. Bu addımın atılmasında məqsəd ƏDV sahəsində vergi fırıldaqçılığının qarşısını almaqdır.

Təklif ilk dəfə yanvarın 27-də Aİ-nin iqtisadiyyat və maliyyə şurasının iclasında irəli sürülmüşdü. Aİ-nin maliyyə və iqtisadiyyat nazirlərinin daxil olduqları şuranın açıqlamasında bildirilmişdir ki, komissiyanın təklifi ƏDV ilə bağlı fırıldağın qarşısını almaq məqsədilə tətbiq edilməli olan ƏDV öhdəliklərini ümumiləşdirməyə, lakin müvəqqəti olaraq ləğv etməyə imkan yarada bilər. Şuranın açıqlamasında bildirilir ki, «əks-vergitutma» adlandırılan mexanizm ƏDV-ni ödəmək cavabdehliyinin tədarükçüdən sifarişçiyə keçməsini əhatə edir». Bundan əvvəl həyata keçirilən «sürətli cavab tədbiri görmək» mexanizminə uyğun olaraq Aİ-yə üzv dövlətlər ƏDV sahəsində sürətlə yayılmaqda olan fırıldaqçılığın qarşısını almaq üçün müvəqqəti olaraq «əks-vergitutma» mexanizmindən istifadə edə bilərlər.

Bu mexanizm müvəqqəti şəkildə, həm də siyahısı müəyyən olunmuş sahələr çərçivəsində tətbiq edilə bilər. Komissiyanın təklifi Aİ-yə üzv dövlətlərə bu mexanizmi müəyyən olunmuş həddən artıq olan daxili tədarüklər üçün ümumiləşdirilmiş şəkildə, lakin müvəqqəti əsasda tətbiq etməyə imkan yaradacaq. Yığıncaqdan sonra komissiyanın vitse-prezidenti Valdis Dombrovskis demişdir: «İqtisadiyyat və maliyyə şurasında müxtəlif mövqelərin mövcud olduğuna görə bu məsələ ilə bağlı intensiv müzakirələr aparmağa hazırıq».

Qeyd edək ki, təklif qüvvəyə minməsi üçün Avropa Parlamenti və Avropa Şurası tərəfindən təsdiq edilməlidir.

## Xəbər lenti

**Böyük Britaniya**nın turistlər üçün cəlbedici şəhərlərində turist vergisinin tutulması üzərində iş aparılır. Yerli hakimiyyət orqanları bu vergi vasitəsilə kommunal xidmətlər üçün zəruri olan əlavə maliyyə vəsaitləri əldə etmək niyyətindədirlər.

**ABŞ**-ın daha 10 ştatında martın 1-dən internet üzərindən alınmış mallar üçün vətəndaşlar vergi ödəməli olacaqlar. Bununla da ABŞ-ın cəmi 11 ştatında onlayn satılan mallar vergiyə cəlb olunmayacaq.

**Rusiya**da iyulun 1-dək kassa işlədən sahibkarlar yeni onlayn kassalara keçəcəklər. Yeni kassalar hər bir əməliyyat barədə vergi orqanına real vaxt rejimində informasiya ötürəcək ki, bu da ticarət və xidmət sektorunda «kölgə pul dövriyyəsinin» azaldılmasına öz müsbət təsirini göstərəcək.

**İran körfəzi** ölkələri (Səudiyyə Ərəbistanı, Birləşmiş Ərəb Əmirlikləri, Küveyt, Qətər və Oman) gələn ildən ilk dəfə olaraq əlavə dəyər vergisi tətbiq edəcəklər. Neftin qiymətinin aşağı düşməsi fonunda dövlət büdcəsinin doldurulması naminə belə bir addımın atılması məcburi hesab edilir.

**İsrail**in vergi orqanları üç illik hüquqi qeyri-müəyyənlikdən sonra, nəhayət, bitkoin və digər elektron pulları hüquqi baxımdan əmlakla eyniləşdirmişlər, bu yanaşmaya əsasən, onların satışından gələn glirlər və ya faizlər vergiyə cəlb olunacaq.

**Belarus** Maliyyə Nazirliyinin məlumatına əsasən, 2016-cı ildə ölkə büdcəsi ÜDM-in 1 faizi həcmində profisitlə yerinə yetirilmişdir. Bu isə o deməkdir ki, Belarus keçən il dövlət büdcəsinin xərclərini azaltmağa, gəlirlərini isə artırmağa nail olmuşdur.

**Yunanıstan**da əmlak vergisi digər Aİ ölkələri ilə müqayisədə xeyli yüksəkdir. Mütəxəssislərin rəyinə görə, bu, yalnız daşınmaz əmlak bazarına deyil, bötövlükdə ölkə iqtisadiyyatına mənfi təsir göstərir. Müqayisə üçün: 2015-ci ildə Yunanıstanda əmlak vergisinin məbləği ÜDM-in 2,5%-ni təşkil etdiyi halda, Almaniyada 0,5%-i qədər olmuşdur.

## Devid Bekhem həftədə 153 min funt sterlinq vergi ödəyəcək

Böyük Britaniyanın Qeydiyyat palatasının son məlumatına əsasən, hazırda idman karyerasını bitirmiş 41 yaşlı futbol ulduzu Devid Bekhem hər həftə dövlət büdcəsinə 153 min funt sterlinq vergi ödəyəcək. Üstəlik də hökumət Devidin və xanımı Viktoriyanın imic hüquqlarından istifadəyə nəzarət edən «Beckham Brand Holdings Ltd» şirkətindən gündəlik 22 min funt sterlinq tutur.

Qeydiyyat palatasının açıqlamasında göstərilir ki, Bekhemlər ailəsi 2015-ci ildə 31 milyon gəlir əldə etmiş və bu məbləğin 8 milyonunu vergi hesablarına köçürmüşdür. Rəqəmlərdən belə aydın olur ki, «Breitling» saat brendi və «Haig Club» viski istehsalçısı ilə reklam müqavilələri sayəsində Devid Bekhemin işləri yaxşı gedir, Viktoriya paltar etiketləri isə böyük itkilərə məruz qalmaqdadır.

Qeyd edək ki, Devid Bekhem, əvvəllər «Spice Girl» qrupunun solisti olmuş xanımı Viktoriya və onların dörd övladı Londonda dəyəri 45 milyon funt sterliq olan malikanədə yaşayırlar.

## krossvord



**Yuxarıdan aşağı:** 1.Türk şair, yazıçı, rəssam, ssenarist və dramaturq, ictimai xadim, Beynəlxalq Sülh Mükafatı laureatı (1950); 2.Berlində inzibati mahal; 3.Daha lazım, ən vacib, çox gərəkli; 4.Məhəmməd peyğəmbərin vəfatından (632) sonra müsəlman icması və teokratik müsəlman dövlətinin dini və dünyəvi başçısı; 5.Azərbaycan türklərindən olan, XI-XII əsrlərdə indiki Azərbaycan ərazisində fəaliyyət göstərmiş və dünya şöhrəti qazanmış memar, Naxçıvan memarlıq məktəbinin banisi və bir çox əsərlərin müəllifinin adı; 6.Populyar estrada müğənnisi; 9.Hər hansı xalqın həyatında qədimdən bəri qəbul edilmiş və kök salmış ənənə, vərdiş; 13.Qadın adı; 15.Britaniyalı yazıçı. Dünyanın 65-dən çox dilinə tərcümə edilən «Harri Potter» seriyasının müəllifi; 16.Üzeyir Hacıbəyovun yarımçıq qalmış operası; 17.Dini inanclara görə ölümdən sonra gediləcəyinə inanılan sonsuz aləm; 18.Qədim yunan mifologiyasında məşhur təbib, təbabət tanrısı Asklepin və Epionun oğlu; 20.Avstriyanın cənub-şərqində şəhər; 21.Hindistanın şimal-qərbində şəhər. **Soldan sağa:** 1.1466-1554-ci illər arasında hökm sürmüş xanlıq; 5.Qohumluq dərəcəsi; 7.Hər hansı müqavilədə (xüsusilə beynəlxalq müqavilələrdə və mövcud şəraitin dəyişməsi ehtimalı böyük olan hallarla bağlı müqavilələrdə, məsələn, sığorta müqaviləsində) edilən müəyyən qeyd-şərtlər və düzəlişlər; 8.Açma, anlatma, izah, təfsir, bildirmə; 10.Hövsələ, səbir; həvəs, mərifət; 11.Elmi dinə tabe etməyə, elmi biliklərdən dini ehkamların müdafiəsində istifadəyə çalışan təlim; 12.Suyun qaz vəziyyəti; 14.Müəyyən məsafə üzrə idman yarışlarının başlanma anı; 19.Türk və altay xalq mədəniyyətində yeni ilin başlanğıcı; 21.Kəmərsiz geniş köynək şəklində kişi iş paltarı; 22.Azərbaycanın milli yeməyi; 23.Sığorta hadisəsi baş verdiyi zaman dəymiş zərərin sığorta ilə təmin olunmayan hissəsi; 24.Bir şeyin işıq şüalarının sınması nəticəsində hamar, parlaq səth, güzgü, su və s. üzərində görünən şəkli, surəti; 25.Almaniyada Aşağı Saksoniyanın cənubunda universitet şəhərciyi.



*Dünyanın 65-dən çox dilinə tərcümə edilən roman və onun əsasında çəkilən «Harri Potter» filmlər seriyası*

**Tərtib etdi: Rafael**

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Küsnət; 2.Turbaza; 3.Rübai; 4.Vikont; 5.Batal; 6.Landau *(Lev)*; 9.Aval; 13.Taxt; 15.Apollon; 16.Amara; 17.Altuna; 18.Ekarte; 20.Disko; 21.Kanim. **Soldan sağa:** 1.Kotirovka; 5.Bal; 7.Sarabski *(Hüseynqulu)*; 8.Etan; 10.Əhali; 11.Novella; 12.Yalta; 14.Almaz *(Əsgərova)*; 19.Mədaxil; 21.Kiosk; 22.Risk; 23.«Durnalar»; 24.Suo; 25.Blanmanje.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor: Anar Əliyev anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini: Məti Osmanoğlu redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

Ünvan: AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

Telefon: 012 403 87 89, 012 403 87 95 (faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

Tiraj: 15000

## idman

# «Bakı Marafonu-2017»

Aprelin 30-da Heydər Əliyev Fondunun təşəbbüsü ilə «Bakı Marafonu-2017» keçiriləcək. İkinci dəfə baş tutacaq marafon bu il də «Küləyə qalib gəl» şüarı altında təşkil olunacaq. Fonddan bildiriblər ki, idmanın inkişafına dəstək göstərmək, sağlam həyat tərzini təbliğ etmək, insanları xeyirxah amallarla bir araya gətirmək məqsədi daşıyan marafon Dənizkənarı Bulvar İdarəsinin, Bakı Olimpiya Stadionunun dəstəyi ilə təşkil ediləcək. Layihənin icrasını isə «Sport Marketing Group» (SMG) şirkəti həyata keçirəcək.




«Bakı Marafonu-2017» ötən il olduğu kimi, Dövlət Bayrağı Meydanından start götürərək Bakı Olimpiya Stadionuna qədər 21 kilometr məsafəni əhatə edəcək. Qeyd edək ki, ötən il mayın 1-də təşkil olunan ilk yarımarafonda 7 mindən çox iştirakçı qeydiyyatdan keçmişdi. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın iştirakı ilə keçirilən yarımarafona Azərbaycan vətəndaşları ilə yanaşı, ölkəmizdə yaşayıb çalışan 500-dək əcnəbi, İspaniya, Fransa, Qazaxıstan, Ukrayna, Səudiyyə Ərəbistanı, İran, Hindistan, Çexiya və digər ölkələrin Azərbaycandakı səfirliklərinin nümayəndələri də qoşulmuşdular. Yarımarafonda, həmçinin, Avstriya, Almaniya, İspaniya, Fransa, Rusiya, Böyük Britaniya, Birləşmiş Ərəb Əmirlikləri, Keniya və digər ölkələrdən turistlər də iştirak etmişdilər.

Bu il keçiriləcək yarımarafona 16 yaşdan yuxarı hər kəs - şəhər sakinləri, qonaqlar əvvəlcədən qeydiyyatdan keçərək qoşula bilər. «Bakı Marafonu-2017»də iştirak etmək istəyənlər qeydiyyat üçün fevralın 10-dan aprelin 20-dək Bakının ticarət mərkəzlərindəki qeydiyyat məntəqələrinə və ya onlayn olaraq «Bakı Marafonu-2017»nin saytına (www.bakumarathon.az) müraciət edə bilərlər. Bu zaman qeydiyyat formasını doldurmaq, şəxsiyyət vəsiqəsinin surətini (tələbələr, həmçinin tələbə vəsiqəsinin surətini) təqdim etmək və iştirak üçün müəyyən olunan vəsaiti ödəmək lazımdır.

Yarışda iştirak etmək istəyən fiziki şəxslər üçün təyin olunmuş ödəniş məbləği 20 manatdır. Korporativ iştirakçılar isə (hər şirkətdən minimum 5 iştirakçı olmalıdır) hər iştirakçıya görə 100 manat ödəməlidir. Yarımarafonda tələbələrin iştirakı üçün vəsait Heydər Əliyev Fondu tərəfindən ödəniləcək. Buna görə də tələbələr qeydiyyat zamanı heç bir ödəniş etməyəcəklər.

# Azərbaycan güləşçisi qızıl medala sahib oldu



Rusiyanın Ryazan şəhərində Sovet İttifaqı qəhrəmanı İ.Zaytsevin xatirəsinə həsr olunmuş 44-cü ənənəvi turnirə yekun vurulub. Turnirdə 21 komandanın tərkibində 168 idmançı gücünü sınayıb.

«Neftçi İdman Klubu»nun yığmamızın heyətində yer almış yunan-Roma güləşçisi Kamran Mirzəliyev (60 kq) böyük əzmkarlıq nümayiş etdirərək turnirin qalibi adını qazanıb. Gənc pəhləvanımız yarımfinalda Rusiyadan olan erməni əsilli idmançı Vladislav Beqyanı məğlub edərək finala vəsiqəni təmin edib. Həlledici görüşdə daha bir rusiyalı - Andrey İvanov üzərində inamlı qələbə qazanan K.Mirzəliyev turnirin qızıl medalına sahib olub.

# Paytaxtımız daha bir mötəbər idman yarışına ev sahibliyi edəcək

2020-ci ildə kişi idman gimnastikası üzrə Avropa çempionatı Bakıda təşkil olunacaq. Bu barədə qərar Avropa Gimnastika İttifaqının Lozannadakı baş qərargahında qurumun İcraiyyə Komitəsinin iclasında qəbul olunub. İclasda Azərbaycan Gimnastika Federasiyasının 2020-ci ildə idman gimnastikası üzrə Avropa çempionatının ölkəmizdə keçirilməsi ilə bağlı namizədliyi məsələsinə baxılıb. Müzakirələrdən sonra kişi idman gimnastikası üzrə 34-cü Avropa çempionatının 2020-ci il mayın 6-10-da Bakıda keçirilməsi qərara alınıb. Qadın idman gimnastikası üzrə 33-cü Avropa çempionatının təşkili isə Parisə həvalə olunub.

Beynəlxalq Gimnastika Federasiyasının 2017-2020-ci illərdə Olimpiya dövrü üzrə yeni qaydalarına əsasən, Avropa çempionatlarında da «Tokio-2020»yə lisenziya qazanmaq imkanı olacaq. Bundan əlavə, Azərbaycan Gimnastika Federasiyası növbəti Olimpiadaya qədər gimnastikanın üç növü (idman gimnastikası, batut gimnastikası, bədii gimnastika) üzrə məhz lisenziya xarakteri daşıyan dünya kuboku mərhələlərini, həmçinin bədii gimnastika üzrə dünya çempionatını təşkil edəcək.

## Lempard futbol karyerasına «əlvida» dedi



«Çelsi» klubu və İngiltərə millisinin sabiq futbolçusu Frenk Lempard peşəkar karyerasını başa vurub. Karyerasına «Vest Hem» komandasından başlayan veteran futbolçu sonradan «Suonsi», «Mançester Siti», «Çelsi», və «Nyu-York Siti» klublarında forma geyinib. 2001-ci ildən London klubuna transfer olunan ingiltərəli futbolçu 13 il ərzində «Çelsi» tarixində ən güclü bombardir olub. O, doğma klubu ilə 648 oyuna 211, İngiltərə millisi ilə isə 106 oyuna 29 qola imza atıb. Lempard «Çelsi»nin heyətində Çempionlar Liqası, Avropa Liqası, üç dəfə İngiltərə Premyer Liqası və dörd dəfə ölkə kubokunun qalibi olub.

## mozaika

elm




# Süni intellekt sistemləri üçün yeni model

ABŞ-ın Şimal-Qərb Universitetinin tədqiqatçılar qrupu süni intellekt sistemləri üçün orta insan səviyyəsini üstələyən yeni model hazırlayıblar. Bu model daha mürəkkəb sistemlərin yaradılması istiqamətində əhəmiyyətli addımdır.

Yeni hesablama modeli Ken Forbus laboratoriyasının mütəxəssisləri tərəfindən hazırlanmış «CogSketch» süni intellekt sistemləri platformasına əsaslanıb. Bu platforma sadə eskizlər şəklində təqdim edilmiş vizual informasiyanı belə real əşya və hadisələrlə əlaqələndirməklə tanımaq qabiliyyətinə malikdir.

K.Forbus deyib: «Yeni süni intellekt sistemlərinin əksəriyyəti bizi əhatə edən aləmi tanıma və onu identifikasiya etməyə istiqamətlənib. Lakin tanıma və identifikasiya obyektlər əsaslandırıldıqda daha faydalıdır». Buna görə də süni intellekt sistemlərinin növbəti nəsli gördükləri barədə fikir irəli sürmək imkanına malik olmalıdır. Yalnız o zaman süni intellekt ən yüksək intellekt səviyyəsinə malik insanları geridə qoya biləcək.

texnologiya

# Mobil telefonla qan analizi

Türkiyənin İzmir Yüksək Texnologiya İnstitutunun (İYTİ) kimya bölməsinin əməkdaşları mobil telefonla qanın analizini həyata keçirmək niyyətindədirlər.

Əvvəlcə xəstədən alınan qan xüsusi kağız üzərinə hopdurulur. Kağızın tərkibindəki maddələr qanla reaksiyaya girdikdən sonra telefonla fotosu çəkilir. Daha sonra telefona yüklənmiş müvafiq mobil tətbiqetmə ilə qanın analizinin nəticələri əldə edilir.

İYTİ-nin əməkdaşı Ümid Hakan Yıldızın sözlərinə görə, layihəni həyata keçirməkdə əsas məqsəd qan analizinin ucuz qiymətə başa gəlməsinə və onun nəticələrinin qısa müddətdə əldə edilməsinə nail olmaqdır. Bu üsulla hətta qanda Hepatit B və Hepatit C viruslarını da müəyyən etmək mümkün olacaq.

sağlam qida

# Palma yağı: bildiklərimiz və bilmədiklərimiz

Son vaxtlar istehlak edilən palma yağının konseregen təsirləri ilə bağlı elm aləmində mübahisələr yaranmaqdadır. Bu mübahisələr zamanı ortaya çıxan həqiqətlərdən biri də odur ki, palma yağının istifadə dairəsi düşündüyümüzdən daha geniş imiş və şirniyyat sənayesini bu yağ olmadan təsəvvürə gətirmək çətinmiş.

«Nutella» brendinin məxsus olduğu İtaliyanın «Ferrero» qənnadı şirkətinin palma yağını müdafiə etməsi də ilk növbədə bu qurumun biznes maraqlarından irəli gəlir. Məsələ bundadır ki, Avropa tənzimləyicilərinin bu inqrediyentın potensial kanserogen olması barədə məruzəsinin dərc edilməsindən sonra bəzi istehsalçılar palma yağını boykot edirlər.

«Ferrero»nun televiziyada keçirdiyi reklam kampaniyasında palma yağı qatılmayan şokoladlı-fındıqlı «Nutella» pastasının o qədər də dadlı olmayacağı əsaslandırılıb. Palma yağı «Nutella»nın tərkibində təxminən 20 faiz təşkil edir. Hər il «Ferrero» bu şirin məmulatdan 250 min ton hazırlayır ki, buna 50 min ton palma yağı sərf edilir.

Palma yağının təbii qırmızımtıl rəngini və kəskin iyini aradan qaldırmaq məqsədilə onun rafinadlaşdırılması çox yüksək temperaturda aparılır. Nəticədə yağ turşularının qlisidil efiri yaranır ki, bu da maddələr mübadiləsi prosesində kanserogen faktora aid edilən qlisidola çevrilir.

«Ferrero» bildirir ki, orqanizm üçün zərərli birləşmələrin yaranmaması məqsədilə şirkət üçün palma yağı Selsi üzrə 200 dərəcədən bir qədər aşağı temperaturda rafinadlaşdırılır. Şirkətin topmenecerlərinin sözlərinə görə, proses yüksək temperaturlu emaldan daha çox vaxt aparır və 20 faiz baha başa gəlir.

Qeyd edək ki, 2016-cı ilin may ayında Avropa Ərzaq Təhlükəsizliyi Agentliyi tərəfindən Selsi üzrə 200 dərəcədən yuxarı temperaturda rafinadlaşdırılan palma yağı istehlakının xərçəng xəstəlikləri ilə əlaqəsi barədə məruzə dərc edilib. Bundan əvvəl müvafiq əlaqə barədə Dünya Səhiyyə Təşkilatının ekspertləri danışıblar.





ELAN

«Vergilər» qəzetinə
2017-ci il üçün
abunə kampaniyası davam edir

Azərbaycanın bütün şəhər və rayonlarında «Vergilər» qəzetinin illik abunə haqqı (çatdırılma xərcləri daxil olmaqla) **31 manat 20 qəpik** təşkil edir.
Qəzetimizə abunə yazılmaq üçün abunə haqqını redaksiyamızın aşağıda göstərilən bank hesabına köçürməyiniz xahiş olunur.

VÖEN: 1300327481; H/h AZ46ATAZ01200012258000138090; «Atabank» ASC; Kod:507581
VÖEN: 9900006651; M/h: AZ50NABZ01350100000000032944; SWIFT: BIK ATAZAZ22

tədqiqat

# Ölümdən sonra...

ABŞ alimlərinin apardıqları tədqiqatlara əsasən məlum olub ki, insan öldükdən sonra onun orqanizminin bəzi hissələri hələ də yaşamağa davam edir. Elm adamları genlər vasitəsilə əldə olunmuş məlumata əsasən bu qənaətə gəliblər.

Məlum olub ki, ölüm baş verdikdən sonra insan DNT-sində həkk olunmuş məlumatlar zülalların sintezinə səbəb olur.

Alimlər ölmüş orqanizmin bütün hüceyrələrinin yaşamaq uğrunda mübarizə apardığını da bildiriblər: bu hüceyrələrin həyat davamlılığı insan ömrünün uzunluğu və ekstremal ağırlığa dözüm zamanından asılıdır. Bundan əlavə, tədqiqatçılar belə halda kök hüceyrələrinin sağ qalmaqla yanaşı, özlərini bərpaetmə qabiliyyətinə də malik olduğu qənaətindədirlər.

## Müdriklər deyib ki...



*«Həmişə doğru danışın,
onda nə dediyinizi xatırlamağa məcbur olmayacaqsız».*
*Mark Tven (1835-1910)*